# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 13 (3526) Cümə axşamı / 18-24 aprel 2024-cü il Qiyməti 40 qəpik


MÜSAHİB

## "Dini təhlükəsizliyimizi gücləndirməliyik"



Ceyhun Məmmədov,
Milli Məclisin deputatı

*Azərbaycana yaxın bölgələrdə cərəyan edən hadisələr, Rusiyada baş verən son terror aktı ölkəmizdə də dini təhlükəsizlik məsələsinə diqqəti artırıb. İstər şimal qonşumuzda yaşanan olaylar, istərsə də cənub qonşumuzdan daim gözlədiyimiz təhlükənin yaratdığı reallıqlar və digər məsələlər ətrafında Milli Məclisin deputatı Ceyhun Məmmədovla söhbətləşdik.*

*Hazırda ölkəmizdə özünü hər hansı formada göstərən dini radikallıq yoxdur*

Səh. 2

# Rus sülhməramlıları Azərbaycanı tərk edir

***Rusiyanın Qarabağda yerləşən sülhməramlı kontingenti Azərbaycan ərazilərini tərk edir. Kreml də artıq Rusiya sülhməramlı kontingentinin Azərbaycanın Qarabağdan bölgəsindən çıxarılmasını təsdiqləyib. Bu addım Azərbaycanın növbəti möhtəşəm diplomatik qələbəsi, Prezident İlham Əliyevin uzaqgörən siyasətinin məntiqi sonluğu kimi dəyərləndirilir. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Rusiya sülhməramlılarının Azərbaycan ərazisindən çıxarılması barədə məlumatla əlaqədar AZƏRTAC-ın sualını cavablandırıb. "2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Azərbaycan Respublikasının ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlılarının ölkəmizin ərazisindən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edilib.***



**Bakının növbəti tarixi uğuru**

Artıq proses başlanıb, Azərbaycan və Rusiya Müdafiə nazirlikləri həmin qərarın icrası ilə bağlı müvafiq tədbirləri həyata keçirirlər", - deyə o bildirib.

Məsələyə Rusiya siyasi dairələrinin də baxışı maraqlıdır. "Rusiya sülhməramlı kontingentinin Qarabağdakı missiyası tam yerinə yetirilmiş hesab edilə bilər, çünki Qarabağın Azərbaycana məxsus olması ilə bağlı artıq heç kim mübahisə etmir". Bu barədə jurnalistlərə açıqlamasında Dövlət Dumasının Müdafiə komitəsi sədrinin birinci müavini Aleksey Juravlyov bildirib. O qeyd edib ki, RSK-nın missiyası tam yerinə yetirilmiş hesab edilə bilər, yəni Rusiya hərbçilərinin artıq evə qayıtmaq vaxtı çatıb. Deputat qeyd edib ki, indi sülhməramlılara ehtiyac yoxdur, çünki Qarabağda heç bir münaqişə tərəfi qalmayıb və Qarabağın Azərbaycana məxsus olması ilə bağlı heç kim mübahisə etmir.

Eyni zamanda, politoloq Aleksey Naumov bildirib ki, 2023-cü ilin sentyabrında Qarabağdakı antiterror əməliyyatından sonra Moskva sülhməramlılarla bağlı bütün məsələləri Bakı ilə həll edib. O deyib ki, Qarabağın Azərbaycana qayıtmasından sonra, Moskva sülhməramlılar haqqında yalnız Bakı ilə dialoq aparacağını vurğulayıb və indi bu dialoqun nəticəsi görünür. "Ermənistan Fransa və ABŞ ilə danışıqlara girəndə, Rusiya Azərbaycanla danışıqlar aparıb. Gündəmdə yeni, Qərbdən asılılığı olmayan logistika zəncirləri (xatırladım ki, bu nəqliyyat zənciri Qərblə münasibətlər yaxşılaşacağı təqdirdə də gərəkli olacaq), birgə qaz layihələri var. Daha bir cəhd isə Cənubi Qafqaz regionunda Qərb təsirinin qarşısının alınmasından ibarətdir", - deyə A.Naumov qeyd edib.

*Ölkə lideri Azərbaycan xalqı, dövləti qarşıda qoyduğu bütün hədəflərə nail olur*

*Bu, Azərbaycanın xarici siyasət sahəsində mövqelərini gücləndirir və daha qətiyyətli addımlar atmağı imkanlar yaradır*



**■ Hərbi ekspert Şair Ramaldanov Rusiya sülhməramlı missiyanın ərazilərimizi tərk etməsində təəccüblü məqam görmədiyini deyib. Onun fikrincə, regionda yaranmış reallıqlar Rusiya sülhməramlı missiyanın bölgəmizdəki fəaliyyətini sıfırlayıb:**

"44 günlük müharibədən sonra 10 Noyabr bəyanatına əsasən, Qarabağda yerləşən Rusiya hərbi kontingenti yeni reallığa əsasən öz missiyasını tamamladı. Antiterror tədbirlərindən sonra ermənilərin Qarabağdan çıxması, az sayda qalan erməni sakinlərin təhlükəsizliyinin təmin olunması, reinteqrasiya prosesinin müsbət nəticələr verməsi, ermənilərə qarşı heç bir təhlükənin olmaması faktı artıq rus sülhməramlı qüvvələrin bölgədəki fəaliyyətinin bitməsi demək idi.

Səh. 5

MÜSAHİB



Ərəstun Oruclu,
siyasi təhlükəsizlik məsələləri üzrə ekspert

■ Azərbaycanın marağı bundan ibarət olmalıdır ki, onun dövlət sərhədlərində, yerləşdiyi coğrafiyada sabitlik olsun...

■ Rusiyanın Yaxın Şərqə çıxmaq üçün keçəcəyi coğrafiya Cənubi Qafqazdır, özəlliklə də Azərbaycandır

■ Qərb Ermənistanı faktiki himayəyə götürdü və bu ölkəyə getdikcə dəstəyinni gücləndirir

Səh. 6

GÜNÜN FOTOSU...



**Danimarkanın yanan 400 illik tarixi**

GÜNÜN SİTATI

*"Türkiyə olaraq üçüncü ölkələrin öz münaqişələrini bölgəyə gətirməsini istəmirik"*



**Hakan Fidan,**
Türkiyə xarici işlər naziri

KARİKATURA




**Mən heç vaxt yalan danışmıram**

## Ermənistan yeni müharibəni yaxınlaşdırır

**Rəşad Bayramov,**
politoloq

Ermənistan prosesi uzatmaqdansa, Azərbaycanın ata biləcəyi addımları düşünməlidir.

Səh. 3

STATİSTİKA



**■ Ötən il Azərbaycanın magistral qaz kəmərləri ilə yükdaşımalardan əldə etdiyi gəlirləri 2 516 082,5 min manat təşkil edib, bu da illik müqayisədə 8,1% artım deməkdir.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2022-ci ildə sözügedən göstərici 2 328 243,1 min manat səviyyəsində olub.



Səh. 7

## Mənzil bazarında durğunluq hökm sürür

## PREZİDENTİN İŞ GÜNÜ

### Sərəncam



**Prezident İlham Əliyev "Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb.**

2023-cü il noyabrın 10-da Türkiyə Respublikasının İstanbul şəhərində keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumu İcraiyyə Şurasının 11-ci iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri yekdilliklə İslam Əməkdaşlıq Təşkilatının "Gənclər Paytaxtı 2024" Beynəlxalq Proqramına 10-cu ev sahibi seçilib.

Sərəncama əsasən, Nazirlər Kabinetinə Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı fəaliyyət planı hazırlayıb həyata keçirmək və bu Sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

### Qəbul



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi Kayrat Sarıbayı qəbul edib.**

Kayrat Sarıbay Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə sədrliyin ölkəmizə keçməsi münasibətilə təbriklərini çatdıraraq, çoxtərəfli diplomatiyada fəal rol oynayan Azərbaycanın bu sahədə zəngin təcrübəsinin olduğunu vurğulayıb. O, bu xüsusda ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi seçilməsini və fəaliyyətini, Qoşulmama Hərəkatında uğurlu sədrliyini, həmçinin digər beynəlxalq təşkilatlar çərçivəsində fəal rolunu qeyd edib.

"COP29"-un Azərbaycanda keçirilməsi münasibətilə də təbriklərini çatdıran Kayrat Sarıbay bunu beynəlxalq ictimaiyyətin Azərbaycanın çoxtərəfli diplomatiya sahəsində roluna hörmətinin və ehtiramının təzahürü kimi qiymətləndirib. O, ölkəmizin regionda böyükmiqyaslı kommunikasiya layihələrinin həyata keçirilməsindəki mühüm rolunu da xüsusi vurğulayıb. Dövlət başçısı təbriklərə görə təşəkkürünü bildirib. Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Asiyada etimad quruculuğu tədbirlərinin həyata keçirilməsində vacib dialoq platforması olduğunu deyən Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini xatırladı və sədrlik çərçivəsində əldə edilmiş təcrübənin bu təşkilata sədrliyin həyata keçirilməsi baxımından faydalı olduğunu bildirib.

Dövlət başçısı Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi COVID-19 pandemiyası dövründə üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsi və Qoşulmama Hərəkatının təsisatlanması baxımından atdığı addımlara toxunub, bu xüsusda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin, Gənclər Təşkilatının və Qadınlar Platformasının yaradılması istiqamətində təşəbbüsləri vurğulayıb.

Prezident İlham Əliyev Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrliyin Azərbaycana keçməsi prosesində bütün üzv ölkələrə, o cümlədən Qazaxıstan tərəfinə təşəkkürünü bildirib.

Söhbət zamanı bu təşkilatın Asiya qitəsində sülhün, təhlükəsizliyin gücləndirilməsinə və etimad quruculuğu prosesinə töhfə verməsi baxımından böyük potensiala malik olduğu qeyd edilib, Azərbaycanın üzv dövlətlərlə birgə çalışaraq Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin daha da təsisatlanması və sahəvi əməkdaşlığın inkişaf etdirilməsinə öz töhfəsini vermək əzmində olduğu vurğulanıb. Görüşdə "COP29" çərçivəsində də bu təşkilatın müxtəlif tədbirlərinin keçirilməsi, eyni zamanda, yaşıl nəqliyyat konsepsiyası və digər sahəvi əməkdaşlıq məsələlərinə baxılması ilə bağlı müzakirələr aparılıb.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# "Dini təhlükəsizliyimizi gücləndirməliyik"

***Azərbaycana yaxın bölgələrdə cərəyan edən hadisələr, Rusiyada baş verən son terror aktı ölkəmizdə də dini təhlükəsizlik məsələsinə diqqəti artırıb. İstər şimal qonşumuzda yaşanan olaylar, istərsə də cənub qonşumuzdan daim gözlədiyimiz təhlükənin yaratdığı reallıqlar və digər məsələlər ətrafında Milli Məclisin deputatı Ceyhun Məmmədovla söhbətləşdik:***

## Müsahib

***- Cənubi Qafqazda marağı olan qüvvələrin - Qərbin, Avropanın Azərbaycan-Ermənistan üzərindən bölgədəki vəziyyətin gərginləşməsinə yönəlik addımlarında din amilindən necə istifadə olunur?***

- Vətən müharibəsində əldə olunan qələbədən sonra, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində müəyyən addımlar atıldığı halda, Qərb bölgəmizdəki proseslərə aqressiv müdaxilə edir. Bu, bölgədəki hazırkı vəziyyətin gərginləşməsinə yönələn, Qərbin bölgəmizdə möhkəmlənməsi üçün atdığı addımlar kimi dəyərləndirilməlidir. Brüssel görüşü həmin prosesin tərkib hissəsi idi. Azərbaycanın iştirakı olmadan regionla bağlı atılan bütün addımlar heç bir effekt verməyəcək.

Azərbaycan ilk gündən münaqişənin dini zəmində baş qaldırdığını qəti şəkildə rədd edib. Bugünkü reallıq ondan ibarətdir ki, Ermənistan bu amildən Azərbaycan əleyhinə istifadə edir və davamlı olaraq münaqişənin dini müstəvidə olması barədə təbliğat aparır. Ermənilər dünyaya səs salmağa çalışırlar ki, guya Cənubi Qafqazda müsəlmanlar xristianları qətlə yetirirlər. Xüsusilə də dini təəssübkeşliyi yüksək olan qruplar, insanlar bu fikri qəbul edib etiraz bildirirlər. Əslində isə bu münaqişənin Ermənistan tərəfindən hansı məkrli torpaq iddiaları əsasında yarandığı hər kəsə yaxşı bəllidir. Aydın məsələdir ki, Ermənistan Azərbaycana qarşı dini müstəvidə hücumların olmasına çalışır. Bu mənada bir çox Qərb ölkələrindən Ermənistana olan dəstəyin arxasında dini təəssübkeşlik durur.

***- Avropa İttifaqı, ABŞ-nin regionda Ermənistanın yanında olduğunu ifadə edən Brüssel görüşündən sonra Paşinyan Azərbaycanla bağlı öhdəliklərini yerinə yetirməkdən imtina etməyə başladı, sərhəddə təxribatlar törətdilər. Belə bir fonda dinimiz bir olan, qonşu İranın susqunluğu, əksinə, İsraillə bağlı Azərbaycanı hədələməsi nədən xəbər verir?***

- Azərbaycanla İran arasında münasibətlərin normallaşması üçün hər iki dövlət tərəfindən addımlar atılır. İranda, hətta Azərbaycan Səfirliyinin bərpası istiqamətində də müəyyən addımlar var. Sadəcə olaraq bir müddət bundan əvvəl Brüssel görüşü ərəfəsində İranın bu məsələyə susqun mövqe nümayiş etdirməsi bizdə suallar yaratmışdı. Əslində, gözləntimiz bu idi ki, İran məsələyə çox sərt reaksiya verəcək. Ermənistanın bölgəmizə kənar qüvvələrin gətirilməsinə heç bir reaksiya göstərmədi. Qeyd etmək lazımdır ki, sonrakı mərhələdə biz İranın məsələ ilə bağlı münasibət bildirdiyinin şahidi olduq. Bütün hallarda Azərbaycan bölgədə gərginliyin artmasının tərəfdarı deyil. İran yaxın qonşumuzdur və münasibətlərin normallaşmasında maraqlıyıq. İran özü də Azərbaycanın regionla bağlı narahatlığını nəzərə almalı və öz siyasətində bu kimi məqamlara həssas yanaşmalıdır.

***- Bölgədə vəziyyətin gərginləşməsi fonunda İran Azərbaycandakı proksi qüvvələrini fəallasdıra bilərmi?***

- İran Azərbaycanla münasibətlərin normallaşmasında maraqlıdır. Ona görə də hazırkı dövrdə hər hansı gərginliyin yaranmasını istəmir. Eyni zamanda hesab edirəm, İranın daxilindən Azərbaycana qarşı yönəlmiş müəyyən əks-təbliğatlar var. İran bu təbliğatın qarşısını almalı, Azərbaycanın daxilində dini proseslərə müdaxilə etməkdən çəkinməlidir.

İranın dövlət nizamının əsas mahiyyəti, məqsəd və məramı, həm də İslam inqilabının digər müsəlman ölkələrinə ixracıdır. Bunun üçün də İran zaman-zaman müxtəlif ölkələrdə bir sıra addımlar atır və tədbirlər həyata keçirir. İran uzun illər Azərbaycanda da bu siyasəti həyata keçirmək üçün özünə müəyyən bir bazanı formalaşdırmağa çalışıb. Təbii ki, dövlətimiz bu istiqamətdə müəyyən tədbirlər görüb.

> *Hazırda ölkəmizdə özünü hər hansı formada göstərən dini radikallıq yoxdur*

***- Azərbaycanda "İslam dini" anlayışı insanların geyimlərindəki qapanmalar, görünüşlərində baş verən digər dəyişikliklərlə daha çox müşahidə olunur. Bu durum nə ilə əlaqələndirərdiniz?***

- Bütün dünya ölkələrində olduğu kimi, Azərbaycanda da dinə qayıdış var. Hesab edirəm, dinə qayıdan insanların sayı getdikcə artır. Bu proses bir tərəfdən, müsbət olsa da, digər tərəfdən mənfidir. Bu prosesdən istifadə edən ayrı-ayrı ölkələr özləri üçün müəyyən bir dini elektorat formalaşdırmağa çalışırlar. Bu mənada, İran da Azərbaycanda dini proseslərə müdaxilə edərək öz elektoratını formalaşdırmağa çalışır. Dövlət bu istiqamətdə ciddi addımlar ataraq belə halların qarşısını alır. Biz din siyasətimizi elə bir formada aparmalıyıq ki, əlavə gərginliklər yaranmasın.

***- Nardaran-Gəncə hadisələri fonunda İranın təxribatçı fəaliyyətinin şahidi olmuşuq. Geosiyasi gərginliyin artması fonunda bu məsələyə nəzər salsaq, belə qüvvələri nə dərəcədə zərərsizləşdirə bilmişik?***

- Ötən müddətdə Azərbaycanın müvafiq dövlət qurumları - Dövlət Təhlükəsizlik Xidməti, Daxili İşlər Nazirliyi bu istiqamətdə xeyli işlər görüb. Həm Gəncədə, həm Nardaranda baş verəcək təxribatların qarşısı dövlət qurumlarımız tərəfindən alınıb. Proses tam bitməyib. Gələcəkdə də belə halların baş verməməsi, yenidən təkrarlanmaması üçün dini sahədə çoxlu islahat aparmalı, tədbirlər həyata keçirilməlidir. Bu cür dini təxribatçı cəhdlər olub və gözlənilən odur ki, yenə də olacaq. Bunların baş verməməsi üçün dini təhlükəsizliyimizi gücləndirməliyik.



**Ceyhun Məmmədov,**
Milli Məclisin deputatı

***- Azərbaycandakı radikal dini cərəyanlar mövcudluğunu necə qoruyur və onlara qarşı daha hansı addımlar atılmalıdır?***

- Hər bir radikal qrupun yekun məqsədi siyasi hakimiyyəti ələ keçirməkdir. İŞİD, "Taliban", "əl-Qaidə" və digər dini qruplar bu siyasətlə hərəkət edib. Ona görə də bu məsələlərdə diqqətli olmalı və elə etməliyik ki, gələcəkdə problemlər yaşamayaq.

Hazırda ölkəmizdə özünü hər hansı formada göstərən dini radikallıq yoxdur. Dövlət güclü olduğuna görə və dövlət strukturları ciddi addımlar atdığı üçün radikal qüvvələr hansısa açıq fəaliyyətdən çəkinirlər. Onlar daha çox çalışırlar ki, öz elektoratlarını gələcəyə hesablanmış planlarına əsasən gücləndirsinlər. Hazırda dini radikal qruplar görünmür. Görünməz olmaları belə qrupların heç olmadığı anlamına gəlmir. Onlar sadəcə olaraq gələcəkdə baş qaldırmaları üçün münbit şərait gözləyirlər. Biz bu prosesə elə formada hazırlaşmalıyıq ki, gələcəkdə onun əziyyətini çəkməyək.

***- Bu sahədə qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsi nəzərdə tutulurmu?***

- Qanunvericilik kifayət qədər güclüdür. Bizim qanunvericilik bazası ilə bağlı heç bir problemimiz yoxdur. Hesab edirəm, biz dövlət-din siyasəti konsepsiyasını qəbul etməli, ümumi strategiyanı müəyyənləşdirməli, eyni zamanda, güclü dini maarifləndirmə işi aparmalıyıq ki, gələcək problemlərdən özümüzü sığortalaya bilək. Profilaktik tədbirlərlə paralel olaraq maarifləndirmə işləri də aparılmalıdır.

***- Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində rəhbər dəyişikliyi baş verdi. Həmin qurumun fəaliyyətində hansı dəyişikliklərə zərurət var?***

- Bu, davamlı olaraq həyata keçrilən bir siyasətdir. Cənab Prezidentin özünün sərəncamına əsasən dəyişiklik edildi. Görünür, dəyişikliyin baş verməsi üçün hansısa ciddi əsaslar var idi. Görünən odur ki, din sahəsində cərəyan edən proseslər səngimir. Əksinə, getdikcə daha da gərginləşir. Belə bir addımın atılması, din sahəsində islahatların keçirilməsi, problemlərin qarşısının alınması üçün atılmış addımdır. Dinlə bağlı həyata keçirilən islahatlar məsələsini təhlil edəndə görürük ki, insanlarımızın din haqqında kifayət qədər məlumatı yoxdur. Bu da onların zərərli dini təriqətlərin qurbanına çevrilməsinə aparıb çıxarır. Ona görə də dini maarifləndirmə işləri maksimum formada sürətləndirilməlidir. Eyni zamanda qeyd etdiyimiz kimi, islahatlar aparılmalıdır. Məscidlərdə təmizlənmə işləri aparılmalıdır. Bəzi məscidlərimizdə bu kimi problemlər qalır. Onların qarşısını almaq üçün real addımlar atılmasına ehtiyac var. Dini konsepsiyanın, strategiyanın radikal qruplarla mübarizə istiqamətində tədbirlər planının hazırlanmasına da ehtiyac var.

***- Daxili sabitliyin pozulmasına yönələn dini radikal cərəyanların gizli fəaliyyətini aşkara çıxarmaq və yaxud gənclərin din adı altında yanlış istiqamətərə yuvarlanmaması üçün istər orta, istər ali təhsil müəssisələrində, ailə institutları ilə aparılan işlər nə dərəcədə qaneedicidir?***

- Məktəblərdə din məsələləri Həyat bilgisi dərsliyində verilir. Hesab edirəm ki, bu, yetərli deyil. Biz orta məktəblərdə, ali təhsil müəssisələrində uşaqlara, gənclərə din haqqında bilgilər verməliyik. Söhbət dinin tədrisindən getmir. Söhbət din haqqında məlumatların, bilgilərin verilməsindən gedir. Bu prosesə ölçülmüş-biçilmiş, ağıllı formada yanaşmalıyıq.

Eləcə də vətəndaş cəmiyyətləri bu sahədə böyük işlər görə bilərlər. Onların bu sahədə çox geniş imkanları var. Bu istiqamətdə vətəndaş cəmiyyətlərinin gördüyü işlər qaneedici deyil. Vətəndaş cəmiyyətləri bu sahəyə daha çox töhfə verməyə çalışmalıdırlar.

✍ ***Tahirə Qafarlı***

# Fransanın iddiaları tam əsassızdır

***Məhz Azərbaycanın razılığı əsasında Fransanın 25 ilə yaxın müddətdə vasitəçilik roluna baxmayaraq, bu ölkənin 2020-ci il Vətən müharibəsindən sonra açıq-aşkar anti-Azərbaycan addımları hər kəsə məlumdur.***

Fransa tərəfinin Azərbaycanı birtərəfli hərəkətlərdə təqsirləndirməsinə baxmayaraq, ölkəmizin Parisə qarşı addımları və verdiyi rəsmi bəyanatlar yalnız bu ölkənin destruktiv fəaliyyətinə cavab xarakterli olub. Ölkəmizə qarşı qarayaxma kampaniyasına baxmayaraq, tərəfimizdən hər zaman dialoq qapıları açıq saxlanılıb.

Fransa xüsusilə son 3 il yarım müddətdə atdığı addımlar ilə Azərbaycanla Ermənistan arasında suverenlik və ərazi bütövlüyü əsasında əlaqələrin normallaşdırılması səylərini ciddi şəkildə sual altına qoyub və vəziyyətin gərginləşməsinə rəvac verib.

Bu fikirləri Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransanın ölkəmizdəki səfirinin geri çağırılması ilə bağlı yerli mətbuatın sualına cavabında səsləndirib.

Mətbuat katibi diqqətə çatdırıb ki, Fransanın BMT Təhlükəsizlik Şurasında, Avropa İttifaqı, Frankofoniya kimi təşkilatlarda və digər beynəlxalq platformalarda dəfələrlə Azərbaycan əleyhinə sənəd layihələrinin təşəbbüskarı olması, bu ölkənin bitərəf vasitəçi iddialarının tamamilə əsassız olduğunu sübuta yetirib.

Məhz Fransada hakim partiyanın nümayəndələrinin təşəbbüsü ilə bu ölkənin parlamentində ölkəmizə qarşı çoxsaylı əsassız ittihamların, təhqir və təhdidlərin əks olunduğu, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini sual altına qoyan və onlara xələl gətirən, keçmiş qondarma rejimi tanıyan qərar və qətnamələr qəbul edildiyini xatırlatmaq istərdik.



Bu müddət ərzində Fransa ərazisində mövcud azərbaycanofob mühitin nəticəsi olaraq səfirliyimizə qarşı dəfələrlə hücumların edilməsi və səfirliyin binasına zərər yetirilməsi, nəhayət ağlasığmaz addım kimi XIX əsr görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın büstünə qarşı vandallıq aktlarının törədilməsi, hökumət tərəfindən bunun qarşısının alınması üçün tədbirlərin görülməməsi rəsmi Parisin ölkəmiz əleyhinə kampaniyasının tərkib hissələridir.

Eyni zamanda, Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyini və ev sahibliyini hədəf alan çağırışlar edən Fransanın Azərbaycanı birtərəfli addımlarda təqsirləndirməsi tam əsassızdır. Bununla yanaşı, Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, bölgədə militarizmi təşviq edən Fransanın addımlarının sülhə xidmət etmədiyi gün kimi aydındır.

"Azərbaycan tərəfi dəfələrlə Fransaya təhdid, təzyiq dili ilə danışmağın heç bir nəticə verməyəcəyini bildirib və öz milli maraqlarının qorunması üçün bütün zəruri tədbirlər görəcəyini bir daha bəyan edir", - deyə A.Hacızadə vurğulayıb.

# Ermənistan yeni müharibəni yaxınlaşdırır

***Azərbaycanın hələ də erməni işğalı altında qalan eksklav və anklav kəndlərinin geri qaytarılması məsələsi ilə bağlı ritorikalar getdikcə kəskinləşir. Ermənistan daxilində bu məsələ hazırda siyasi proseslərə əsas yön verən vasitəyə çevrilib. Baş nazir Nikol Paşinyan ilk mərhələdə dörd kəndin geri qaytarılmasının zəruriliyi ilə bağlı iddialı bəyanatları revanşistləri hərəkətə keçirib. Son günlər Paşinyan və komandasının kəndlərin qaytarılması ilə bağlı ziddiyyətli bəyanatları Avropa İttifaqı, ABŞ rəsmiləri ilə Brüsseldə keçirdikləri görüşdən sonra daha da artıb.***



## Müzakirə

"Bu, Azərbaycan əraziləridir, qaytarılmalıdır", - deyən Paşinyan Brüssel görüşündən sonra kəndlərin qaytarılması ilə bağlı konkret vaxtın olmadığını bildirib. Bunun müqabilində isə sərhəddə gərginlik getdikcə artır.

■ **Millət vəkili Hikmət Məmmədov regionda baş qaldıran gərginliyin Fransanın rəhbərlik etdiyi Qərb koalisiyasının Azərbaycanın beynəlxalq münasibətlər sistemində təklənməsinə yönəldiyini deyib. Deputat bunun nəticəsi olaraq Avropadan, Qərbdən ölkəmizə qarşı mənfi təzahürlərin ortaya çıxdığını bildirib:**

"Bu gün Ermənistan Azərbaycanın 8 kəndini işğal altında saxlayır. Bu, hər şeydən öncə, Qərb demokratiyası adına utancdır, Qərbin təbliğ etdiyi dəyərlərlə ziddiyyət təşkil edir. Demokratik institutlar kimi yaradılan qurumları işğalçı dövlətə dəstək verirlər".

H.Məmmədov ABŞ, Avropa İttifaqı, Ermənistanın Brüssel görüşündən qaynaqlanan müəyyən məqamlara diqqət çəkib. Bildirib ki, görüşdə müzakirə edilən məsələləri nəzərədən keçirəndə və mövcud yanaşmalara baxanda bunun təkcə iqtisadi məsələlərlə bağlı olmadığı üzə çıxır:

"Nəticə etibarilə bu, Ermənistanın gücləndirilməsinə xidmət edir. Burada Azərbaycanın hüquqlarının məhdudlaşdırılması məsələsi diqqəti cəlb edir:

"Bu, 30 il Azərbaycan torpaqlarını işğal altında saxlamış, bu gün də 8 kəndini işğal altında saxalayan Ermənistana siyasi, hərbi, strateji dəstək verməkdən ibarətdir. Azərbaycanın narahatlığı haqlıdır. Azərbaycan elə də zəif ölkə deyil, belə oyunlara boyun əysin:

"Azərbaycanın mövqeyi qətidir. Azərbaycan icazə verməyəcək ki, 30 ildən sonra qan tökərək əldə etdiyi mövqeləri əlindn alınsın. Belə bir risk yaranacaqsa, Azərbayan bir an belə tərəddüd etmədən layiqli cavabı verəcək. Ermənistan və havadarları buna ciddi yanaşmalıdır".

■ **Bunu isə hafta.az-a siyasi şərhçi Əli Mustafa deyib: "Azərbaycanın işğalda qalan kəndlərindən dördünün geri qaytarılması ilə bağlı danışıqların dalana dirənməsi bölgədə yaranmış gərginliklə əlaqədardır. Gərginlik yalnız Azərbaycan-Ermənistan sərhədində deyil, həm də Ermənistanın daxilindədir".**

O hesab edir ki, Azərbaycan təmkinli davranmalı və ilk əlverişli şəraitdə həmin kəndləri geri qaytarmalıdır.

Onun sözlərinə görə, Ermənistandakı revanşist qüvvələr bu kəndlər üzərindən Paşinyana qarşı hücumlar, siyasi manevrlər edirlər. Böyük ehtimalla, Paşinyan özünü daxili hücumlardan qorumaq üçün gərginliyin səngiməsini gözləyir: "4 kəndin indi, yaxud bir aydan sonra geri verilməsi böyük problem yaratmasa da, ciddi münaqişə üçün səbəb ola bilər. Revanşist qüvvələr bu məsələnin üzərindən Paşinyanın üzərinə gedib onu devirmək istəyirlər. İndiki vəziyyətdə Ermənistanda gərginliyin dərinləşməsini istəmirik. Bu, o demək deyil ki, biz haqlarımızdan geri çəkilirik, xeyr. Azərbaycan, nəinki 4 kəndi, bütövlükdə hazırda Ermənistanın işğalında qalan 8 kəndin hamısını geri alacaq. Ermənistanla aramızda olan problem təkcə kəndlər deyil. Ona görə də təmkinlə davranmalı və əlverişli şəraitdə kəndlərimizi geri almalıyıq. Ermənistan iqtidarı Azərbaycan ərazilərini tam şəkildə geri qaytarmalı olduğunu dərk etməlidir".

■ **Politoloq Rəşad Bayramov bildirir ki, Ermənistan hakimiyyəti bütün vasitələrlə Azərbaycanın 4 kəndini qaytarmaqdan imtina edir, sülh prosesini uzadır. Onun sözlərinə görə, vaxtilə kəndlərin qaytarılmasının vacibliyini bildirən Paşinyanın Brüssel görüşündən sonra 180 dərəcə dönməsi bölgədə gərginliyin saxlanılmasına yönəlib:**

"Parlamentdə müxalifətin tələbi ilə kəndlərin qaytarılıb-qaytarılmamasının müzakirəyə çıxarılması, referendumun keçirilməsi ilə bağlı erməni ictimaiyyətində fikirlərin yayılması və sair hallar deməyə əsas verir ki, Ermənistan hakimiyyəti prosesin maksimum uzadılmasında maraqlıdır. Brüsseldə istədiyinə nail olmayan Ermənistan hakimiyyəti vəziyyətin gərginləşdirilməsində və Azərbaycan-Ermənistan sərhəddində gərginliyin qalmasında maraqlıdır. Bununla da Avropadakı dostlarından əlavə dəstək almağa ümid edir". R.Bayramov bildirir ki, Ermənistan hakimiyyətinin hansı davranış sərgiləməsindən asıl olmayaraq həmin kəndlər beynəlxalq səviyyədə tanınan Azərbaycan əraziləridir:

> *Demokratik institutlar kimi yaradılan qurumlar işğalçı dövlətə dəstək verirlər*
>
> *Təmkinli davranmalı və əlverişli şəraitdə kəndlərimizi geri almalıyıq*
>
> *Ermənistan prosesi uzatmaqdansa, Azərbaycanın ata biləcəyi addımları düşünməlidir*
>
> *Azərbaycan-Ermənistan münasibətlərini gərginləşdirməyə çalışan bəzi Avropa və Qərb dövlətləri bundan istifadə edərək Paşinyanı istədiyi kimi idarə edirlər*

"Ermənistan hakimiyyəti müxtəlif tribunalardan həmin kəndlərin Azərbaycan əraziləri olduğu barədə açıqlamalar verib. Bir ölkənin beynəlxalq səviyyədə tanınan ərazilərinin geri qaytarılmasının müzakirəyə çıxarılması özü belə qəbul olunan məsələ deyil. Ermənistan həmin kəndləri xoşluqla geri qaytarmadığı halda keçirəcəyimiz hər hansı əməliyyat beynəlxalq hüquqa uyğundur. Ona görə də Azərbaycanın öz ərazilərini azad etməsinin beynəlxlaq qınaq obyektinə gətirilməsi mümkünsüzdür. Ermənistan prosesi uzatmaqdansa Azərbaycanın ata biləcəyi addımları düşünməli və kəndlərin geri qaytarılmasını tezləşdirməlidir".

■ **"Yeni Xətt" Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov hesab edir ki, Azərbaycanın işğal altında qalan səkkiz kəndindən dördünün ilkin olaraq geri qaytarılmasının vacibliyini önə çəkən Nikol Paşinyanın Brüssel görüşündən sonra fikirlərini dəyişməsi Avropdan aldığı qərəzli sifarişlə bağlıdır.** Ermənistan bəzi Avropa, Qərb dövlətləri üçün gərginlik saçan poliqona çevrilir ki, bu da onun mövcudluğunu şübhə altına salır. Ermənistan Azərbaycanla oyun oynamaqdan əl çəkməli və üçtərəfli bəyanata əsasən götürdüyü öhdəlikləri yerinə yetirməli, ərazilərimizi azad etməlidir.

R.Hüseynov bildirir ki, Ermənistan dövlət rəsmilərinin, müxalifətinin ziddiyyətli, anlaşılmaz davranışları Azərbaycanın tarixi ərazilərində tapdanan haqlarını bütünlüklə bərpa etməsi, qoruması üçün beynəlxalq hüquqa söykənən növbəti şəraiti yetişdirir. Onun sözlərinə görə, əgər Paşinyan həmin kəndlərə səfər edərkən bu torpaqların Azərbaycan əraziləri olduğunu etiraf edib, o kəndlərin geri qaytarılmasının zəruriliyini bildiribsə, bunun əksinin hansı nəticələr doğura biləcəyini də çox gözəl anlayır. Paşinyan əgər bu gün Ermənistan hakimiyyəti həmin kəndlərin geri qaytarılması ilə bağlı hər hansı vaxtın qoyulmadığını iddia edib, revanşist dirənişlər sərgiləyirsə, deməli kimlərinsə sifarişini icra edir:

"Bu onu göstərir ki, Ermənistan kənar dövlətlər tərəfindən istiqamətləndirilir. Məhz Brüssel görüşündən sonra Paşinyanın 4 kəndin qaytarılması ilə bağlı konkret vaxtın verilmədiyini söyləməsi bu sifarişin gərginliyin yaradılmasına hesablandığını göstərir. Ermənistanın bu cür buqələmun siyasəti kənar müşahidləçi ölkələr, eləcə də region dövlətləri üçün gələcəyi olmayan bir ölkə imicini yaradır".

R.Hüseynov bildirir ki, Ermənistan və onun baş naziri Azərbaycanın öz torpaqlarını azad etməsi üçün keçdiyi hərbi yolu yaxşı bilir və sülhdən imtina edəcəyi təqdirdə nə ilə üzləşə biləcəklərini də dərk edir. Onun fikrincə, Azərbaycan-Ermənistan münasibətlərini gərginləşdirməyə çalışan bəzi Avropa və Qərb dövlətləri bundan istifadə edərək Paşinyanı istədiyi kimi idarə edirlər.

"Fransız" idarəçilər "Paşinyan sükanını" indi də regionda vəziyyətin alovlanmasına yönəldib. Bu qüvvələr Azərbaycanın onsuz da bu torpaqları geri alacağını dərk edə-edə vəziyyəti müharibəyə sürükləmək istəyirlər. Bu gün söhbət tək 4, yaxud 8 kənddən getmir. Azərbaycan öz ərazilərini tamamilə bərpa eləməlidir. Ermənilər prosesi uzatmaqla vaxt qazanmağa, silahlanmağa, revanşist addımlar atmağa çalışsalar da, heç nəyə nail ola bilməyəcəklər. Ermənistan 44 günlük müharibə, imzalanan üçtərəfli sənəd, Azərbaycana olan yalvarışlarını, sonrakı mərhələdə hər hərbi təxribatlarına qarşı verilən cavabla Azərbaycanın tərs şilləsini gördü.

Əgər bu dəfə də belə təxribatçı addımlar atsalar, bu tərs şilləni yenə də görəcəklər. Azərbaycanın iradəsi, diplomatik, hərbi gücü bizə bunu həyata keçirməyə imkan verir. Beynəlxalq hüquq Azərbaycanın öz ərazilərini azad etməyə imkan verir. Eləcə də azərbaycanlıların öz tarixi dədə-baba torpaqlarına qayıtma şansı çoxalır. Dövlətimiz, ölkənizin siyasi rəhbərliyi bu barədə düşünür və Ermənistanı davranışlarında dürüst olmağa dəvət edir. Əks halda, bütün olanların məsuliyyəti Ermənistan və onun havadarlarının üzərində qalacaq".

***Tahirə***

## Müsahib

***Brüsseldə Ermənistan, Avroapa İttifaqı və ABŞ rəsmiləri arasında keçirilən üçtərəfli görüşdən sonra bölgəmizdə cərəyan edən proseslər bəzən gözləmədiyimiz istiqamətə yan almaqdadır. Buraya həm Ermənistanın sülh danışıqları ilə bağlı sərgilədiyi mövqelərdəki dəyişiklik, İrəvanla Moskva arasında yaşanan gərginliklər, həm də Cənubi Qafqazda artan Qərb-Rusiya qarşıdurması daxildir. Deputat Elşad Mirbəşirlə elə bu mövzular ətrafında danışdıq:***



**Elşad Mirbəşir,**
Milli Məclisin deputatı

# "Qərbə idarə olunan rejimlər lazımdır"

***- Qərb və Avropanın Ermənistan üzərindən Azərbaycana qarşı yönələn geosiyasi təsirləri regionla bağlı hansı oyunlardan xəbər verir?***

- Qərbin Cənubi Qafqaz regionunda yenidən gərginlik yaratma cəhdlərini Rusiyaya qarşı aparılan mübarizənin bir hissəsi kimi nəzərdən keçirə bilərik. Bunun üçün bütün əsaslar mövcuddur. Unutmayaq ki, regionda yaranan gərginlik elementlərini böyük geosiyasi mübarizələr şərtləndirir. Kollektiv Qərblə Rusiya Federasiyası arasında gedən mübarizə dünyanın müxtəlif coğrafiyalarında müşahidə olunmaqdadır. Qərbin Rusiyaya qarşı mübarizəsinin əsas taktikalarından biri Rusiya sərhədlərinin perimetri boyunca müxtəlif münaqişələrin yaradılmasıdır. Bu mənada Azərbaycanla Ermənistan arasında olan keçmiş münaqişə vəziyyəti imkan verirdi ki, regiondan kənardakı ölkələr bu coğrafiyada özlərinin mövcudluqlarını təmin edə bilsinlər. Azərbaycan münaqişəni həll etməklə Qərbin Cənubi Qafqaz regionuna müdaxilə imkanlarını aradan qaldırmış oldu. Ona görə də Qərb əvvəlki imkanlarını yenidən bərpa etməyə çalışır.

> *Rusiya ilə Qərbin Cənubi Qafqazda maraqlarının uzlaşması ilə bağlı heç bir əlamət yoxdur*

***- ABŞ-İran-İsrail, Rusiya-Ermənistan-Qərb münasibətlərindəki ziddiyyətlər fonunda Qərblə Rusiya Cənubi Qafqazda nədə uzlaşa bilər?***

- Əvvəla, Rusiya ilə Qərbin Cənubi Qafqazda maraqlarının uzlaşması ilə bağlı heç bir əlamət yoxdur. Əksinə, Rusiya ilə Qərbin maraqları regionda toqquşur. Çünki həm dünyada, həm də Cənubi Qafqazda geosiyasi vəziyyət başqadır. Rusiya çox gözəl dərk edir ki, qərb sərhədlərində gərgin vəziyyət yaranıb. Növbəti təhdid Cənubi Qafqaz regionu ilə bağlıdır. Ona görə də Rusiya öz təhlükəsizliyi üçün Cənubi Qafqaza ən vacib bölgə kimi baxır. Düşünür ki, bu bölgəyə Qərbin müdaxiləsinə heç bir halda imkan verilə bilməz. Reallıq bundan ibarətdir. 15-20 il bundan qabaq vəziyyət başqa idi. Müəyyən bir mərhələdə hər hansı bir məsələ ilə bağlı bu qütblərin oxşar, yaxud yaxın mövqeləri ola bilərdi. Bu gün vəziyyət köklü şəkildə dəyişib. Cənubi Qafqaz regionu ilə bağlı Rusiyanın yanaşması daha məqbuldur, nəinki Qərbin. Qərb regionda yeni bir cəbhə açmaq istəyir. Belə olan halda istər-istəməz region dövlətləri bundan əziyyət çəkəcəklər. Məlumdur ki, Ermənistanla Rusiyanın birbaşa quru sərhədləri mövcud deyil. Yəni Ermənistanı cəbhəyə çevirəndən sonra Rusiya ilə ciddi gərginlik yaranacaq.

Fransa İrəvanı silahlandırır. Fransanın lisenziyası əsasında Hindistanda istehsal olunan silahlar Ermənistana göndərilir. Burada da Qərbin patronajlığı var. Eyni zamanda, ABŞ Konqresində də biz Azərbaycana qarşı çox sərt, açıq və əsassız ittihamlar gördük. Bütün bunlar onu göstərir ki, Qərb Ermənistandan Rusiyaya qarşı bir silah kimi istifadə etmək niyyətindədir. Bunun müqabilində isə Ermənistan Qərbdən Azərbaycana qarşı dəstək istəyəcəkdir. Bu gün Qərb Ermənistana təhlükəsizlik təminatları vermək istəyir. Amma bunu da əsaslandırmaq üçün Ermənistan vasitəsi ilə Azərbaycanı təxribata çəkmək niyyəti güdür.

***- Sizcə, Brüsseldəki üçtərəfli görüşdə hansı məqamlar müzakirə edilib?***

- Sual olunur: Qərbdən kim nə soruşdu ki, bunlar həmin görüşü yumşaltmağa məcbur qaldılar. Bu sual qoyulmadan belə Qərb israrla görüşün məqsədini izah edirdi. Deməli, məqsəd başqadır. Görüşdə tamam fərqli məsələlər müzakirə olunub. Həmin ərəfədə Avropa İttifaqının, ABŞ rəsmilərinin Azərbaycan Prezidentinə zəng etmələri onu göstərir ki, dövlət başçımızın nüfuzundan, iradəsindən çəkinirlər. Deməli, Azərbaycanın mövqeyi onlar üçün əhəmiyyətsiz deyil.

Kollektiv Qərb Ermənistandan özü üçün həyati vacib hesab etdiyi istiqamətdə, Rusiyaya qarşı istifadə edəcək. Əsas görünən tərəf bundan ibarətdir.

***- Qərbin Ermənistana vəd etdiyi dəstəklə bağlı Gürcüstan, İran tranzit ölkə kimi əməkdaşlığa cəlb oluna bilərmi?***

- Ermənistana vədlərin verilməsi hələ onların yerinə yetirilməsi deyil. Kollektiv Qərb artıq bir coğrafiyada müharibə aparır və əsas resurslarını o istiqamətə yönləndirib. Böyük miqyasda Ermənistana dəstək olmaq imkanları mövcud deyil. Hələ ki, bunun üçün siyasi əsaslar formalaşdırmağa çalışırlar. Qərb cəmiyyəti də məsələyə birmənalı yanaşmır. Müxtəlif ölkələrdə etiraz aksiyaları, iqtisadi geriləmələr var. Geosiyasi məqsədlər üçün əlavə olaraq Ermənistana dəstək verilməsi Qərb cəmiyyətində gərginlik toru yaradacaqdır. Ermənistanın geosiyasi mübarizədə alət kimi istifadə olunmasının ideya müəllifi ABŞ-dir. ABŞ İranla nüvə razılaşmasından da çıxdı. Ona görə də biz bu gün ABŞ-İran arasında hansısa gizli anlaşmaların olduğunu demək üçün ciddi əsaslara sahib deyilik. Qərb isə Ermənistan üzərindən ikinci bir cəbhə açacaqsa, regionun heç bir dövləti ortaya çıxacaq təhlükələrdən sığortalanmayıb. O cümlədən də İran

***- Brüssel görüşü ilə Azərbaycana hansı mesaj verildi və hansı cavabı aldılar?***

- Qərbin mesajı həmişə bu olub ki, Azərbaycan onun geosiyasi ambisiyalarına uyğun mövqe sərgiləsin. Azərbaycan bu gün tam müstəqil, öz milli maraqları çərçivəsində davranan bir ölkədir. Bir qayda olaraq, kollektiv Qərb belə ölkələri qəbil etmir. Qərbə idarə olunan rejimlər lazımdır. Təsadüfi deyil ki, əlləri hara çatırsa, orada rəngli inqilablar törədir, özlərinə loyal olacaq siyasi qüvvələri hakimiyyətə gətirirlər. Ermənistanda Paşinyanın hakimiyyətə gətirilməsi də belə oldu.

Paşinyan hakimiyyətə gətirilməmişdən əvvəl onun hərəkətinin adı "çıxış" idi - yəni Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından, Avrasiya İqtisadi İttifaqından çıxş. Qərb istəyirdi ki, Ermənsitanı o platformalardan geri çəksin. Paşinyanın o düşüncədə olduğunu və həmin istiqamətə getmək istədiyini gördülər və onu hakimiyyətə gətirdilər.

***- Azərbaycan belə bir geosiyasi gərginlik fonunda ona qarşı yönələn təsir və təzyiqlərə qarşı necə dayanır?***

- Azərbaycan özünün mövqelərini qorumaq gücündədir və bunu edir. Digər region ölkələri ilə müqayisədə bizim mövqelərimiz ən yaxşıdır. Qərb deyir ki, gəl mənim cəbhəmdə ol, sənin vasitənlə başqasına qarşı mübarizə aparım. Bilirsiniz ki, Qərb hansı ölkəni öz yanına çəkirsə, ondan başqa ölkəyə qarşı istifadə edirsə, ortada qalan həmin ölkələr olur. Vaxtilə Borrel özü etiraf edirdi ki, biz Ukraynaya öz maraqlarımıza görə dəstək oluruq. Yəni bir ölkəni müharibə tərəfinə çevirdilər və onu öz maraqlarına görə dəstəklədikərini dedilər.

***Tahirə Qafarlı***

# Son illərin ən böyük layihəsi



## Layihə

**_Son illər müşahidə edilən qlobal iqlim dəyişmələri, suya tələbatın artması məhdud su ehtiyatlarına malik olan ölkəmizdə də bu ehtiyatlardan daha səmərəli istifadə edilməsini aktuallaşdırır. Hesablamalara görə, 2100-cü ildə Azərbaycanın su ehtiyatlarının 40 faizinin azalması təhlükəsi ilə üzüzə qala bilərik._**

### Ən böyük suvarma kanalı yenidən qurulacaq

**Qlobal iqlim dəyişmələrinin təsirlərinin artması fonunda Azərrbaycan hököməti mövcud ehtiyatları qorumaq məqsədilə ardıcıl olaraq müvafiq tədbirlər həyata keçirir.**

Ölkəmizdə su təminatının mühüm həlqələrindən olan Yuxarı Qarabağ suvarma kanalında yüksək su itkilərinin qarşısının alınması, suvarma suyu ilə təminatda yaranan çatışmazlıqların aradan qaldırılması, həmçinin torpaqların meliorativ və ətraf ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılması da əsas hədəflərdəndir. Qeyd edək ki, bu günlərdə Prezident İlham Əliyev "Qarabağ suvarma kanalının yenidən qurulması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncamda deyilir ki, ölkəmizin ən böyük magistral suvarma kanalı olan Yuxarı Qarabağ kanalı Qarabağ zonası və ona yaxın ərazilərdə yerləşən 9 rayonun 115 min hektaradək əkin sahəsini suvarma suyu ilə və yaşayış məntəqələrini məişət suyu ilə təmin edir, habelə Araz çayı üzərindəki Bəhrəmtəpə hidroqovşağına əlavə su ötürməklə müvafiq əkin sahələrinin su təminatına dəstək verir. Sərəncama əsasən, Qarabağ zonası və ona yaxın ərazilərdə su təchizatı infrastrukturunun müasirləşdirilməsi, su itkilərinin azaldılması və meliorasiya olunmuş torpaq sahələrinin genişləndirilməsi məqsədilə Yuxarı Qarabağ suvarma kanalı yenidən qurulacaq və Qarabağ suvarma kanalı adlandırılacaq.

### 8 rayonun su təminatı yaxşılaşacaq

**Prezident İlham Əliyev Şirvan suvarma kanalının da yenidən qurulması haqqında sərəncam imzalayıb. Sərəncamda deyilir ki, ölkənin ikinci ən böyük kanalı olan torpaq məcralı Yuxarı Şirvan suvarma kanalı Şirvan düzündə yerləşən 8 rayonun 112 min hektardan artıq əkin sahəsini suvarma suyu ilə və yaşayış məntəqələrini məişət suyu ilə təmin edir.**

Fasiləsiz istismar olunduğu 65 ildən çox müddət ərzində sözügedən kanalın cari və əsaslı təmirinə baxmayaraq, onun torpaq məcrasında baş verən dəyişikliklər, eləcə də qurğuların öz funksiyasını itirməsi su itkisinin artmasına səbəb olub. Bununla əlaqədar kanalın yenidən qurulması üçün texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədləri hazırlanıb. Sərəncama əsasən, Yuxarı Şirvan suvarma kanalı yenidən qurulacaq və onu adı Şirvan suvarma kanalı adlandırılacaq.

Xatırladaq ki,1958-ci ildə istifadəyə verilən və ölkənin ikinci ən böyük kanalı olan torpaq məcralı Yuxarı Şirvan suvarma kanalı başlanğıcını Mingəçevir su anbarından götürür. Yuxarı Şirvan kanalı Şirvan düzündə yerləşən Yevlax, Ağdaş, Göyçay, Zərdab, Ucar, Kürdəmir, İsmayıllı və Ağsu rayonlarının 112 min hektardan çox əkin sahəsini suvarma və yaşayış məntəqələrini məişət suyu ilə təmin edir. Suötürmə qabiliyyəti saniyədə 78 kubmetr və uzunluğu 122 kilometr olan kanalın 65 ildən artıq fasiləsiz istismar edilməsi, illik su itkilərinin kəskin artması və qurğuların qəzalı vəziyyətə düşərək funksiyalarını itirməsi nəticəsində torpaqların meliorativ vəziyyəti pisləşərək deqradasiyaya uğrayıb. Bütün bunlar mövcud əkin sahələrinin vegetasiya dövründə suvarma suyu ilə təminatında çatışmazlıqlar yaradıb, bölgənin suya daim artan tələbatının ödənilməsindəki gərginliyi daha da dərinləşdirməklə ekoloji tarazlığın pozulmasına gətirib çıxarıb. Yeri gəlmişkən, Prezident İlham Əliyev aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlini qoyub. Mərasimdə bildirilib ki, Türkiyənin "Su Yapı" məsləhətçi şirkəti tərəfindən Yuxarı Şirvan kanalının yenidən qurulması üzrə texniki-iqtisadi əsaslandırma sənədləri və 4 mərhələdə işçi layihə hazırlanıb. Kanalın müasir tələblər səviyyəsində yenidən qurulması və tikintisi mərkəzləşdirilmiş SCADA sistemi yaratmaqla su ehtiyatlarından daha səmərəli istifadəyə və optimal idarəetməyə, yaşayış məntəqələrinin məişət su təminatının yaxşılaşdırılmasına, 230 min hektar torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsinə, o cümlədən 110 min hektardan çox mövcud əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına və 116 min hektar əkinə yararlı torpaqların dövriyyəyə cəlb olunmasına, təqribən 346 milyon kubmetr su itkisinin qarşısının alınmasına, Hacıqabul gölünün, ətraf ərazilərin ekoloji və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılmasına, yüksək məhsuldarlığın əldə olunmasına, iri təsərrüfatlara məxsus əkin sahələrini suvarma suyu ilə təmin edən nasos stansiyalarının fəaliyyətinin dayandırılmasına və Pirsaatçay su anbarının nasos stansiyasının qidalandırılmasına imkan verəcək.

### "İqlim dəyişikliyi ilə bağlı dünyada böyük narahatlıq var"

**Təməlqoyma mərasimində dövlət başçısı çıxış edərək vurğulayıb ki, Azərbaycanda həyata keçirilən infrastruktur layihələrinin əsas məqsədi ölkəmizin sürətli inkişafını təmin etmək, insanların rifah halını yaxşılaşdırmaq, xüsusilə bölgələrdə yaşayan insanların məşğulluğu üçün şərait yaratmaqdır:**

"Son illər ərzində əsas infrastruktur layihələri icra edilmişdir. Azərbaycanda həyata keçirilmiş infrastruktur layihələri ölkəmizi tamamilə yeni bir səviyyəyə qaldırmışdır. Elektrik enerjisi, avtomobil yolları, dəmir yolları, su kəmərləri, içməli su layihələri, o cümlədən suvarma ilə bağlı olan layihələr artıq öz səmərəsini göstərir. Əvvəlki illərdə bu sahəyə aid bir çox böyük layihələr icra edilmişdir. Onların arasında, ilk növbədə, Taxtakörpü-Ceyranbatan suvarma kanalını qeyd etməliyəm. Taxtakörpü su anbarının tikintisi də xüsusi əhəmiyyətə malik olan layihə idi. Şəmkirçay su anbarı da çox böyük infrastruktur layihəsi idi. Beləliklə, həm Şimal, həm Qərb bölgələrində əkin üçün yararlı olan torpaqların həcmi və sahəsi böyük dərəcədə artırılmışdır.

Şirvan kanalının əhəmiyyəti də göz önündə olacaqdır. Bu, bizim ən böyük - suyun həcminə və əkin sahələrinin əhatəsinə görə ən böyük layihəmiz olacaqdır. Əminəm ki, yaxın gələcəkdə 10 rayon üzrə yerləşən məntəqələrdə bu yeni kanalın əhəmiyyətini hər kəs görəcək.

Bu layihə ilə biz bu sahəyə yeni nəfəs gətiririk. Eyni zamanda, Qarabağ kanalının da, - vaxtilə bu, Yuxarı Qarabağ kanalı adlandırılmışdır, indi isə bunun adı Qarabağ kanalıdır, - inşası ilə əlaqədar Sərəncam imzalanıb, texniki-iqtisadi əsaslandırma aparılacaq və bu işin nəticəsində yeni layihə işlənib hazırlanacaq. Biz Qarabağ kanalının inşasına gələn ildən başlamalıyıq. Bu da 115

Azərbaycan Respublikasın
Medianın İnkişafı Agentli

Ekologiya və ətraf mühitin mühafizəsi

min hektarı əhatə edəcək kanaldır. Orada da əhatə olunan rayonların sayı 9-a bərabərdir. Yəni, burada 10 rayon Şirvan kanalı vasitəsilə, 9 rayon isə Qarabağ kanalı vasitəsilə suvarılacaq".

Prezident qeyd edib ki, iqlim dəyişikliyi ilə bağlı dünyada böyük narahatlıq var: "O cümlədən Azərbaycanda da bu narahatlıq mmövcuddur. Biz indi görürük ki, bu il faktiki olaraq əvvəlki illərdən fərqlənirdi. Bu il kifayət qədər qar, yağış yağmışdır və bizim su hövzələrimizdə, su anbarlarında kifayət qədər su var. Ancaq əvvəlki illərdə biz hər il quraqlıqla üzləşirdik. Bizim dağlarımıza daha az qar yağırdı. Çaylarımızda suyun səviyyəsi əvvəlki illərdə aşağı düşürdü, bəzi hallarda əsas çaylarımız quruyurdu. Xəzər dənizinin dayazlaşması göz önündədir. Bunu hər kəs görə bilir.

Belə olan halda su ehtiyatlarından səmərəli şəkildə istifadə etmək bizim başlıca vəzifəmizdir. Mən bir daha demək istəyirəm ki, Azərbaycanda bir çox infrastruktur layihələri öz həllini tapmışdır. Qazlaşdırmanın səviyyəsi 96 faizə çatıb. Elektrik enerjisi ilə təminat və yeni elektrik stansiyalarının yaradılması geniş vüsət alıb və əhəmiyyətli dərəcədə irəliləyişə nail olmuşuq. Bütün ölkəmiz yeni, müasir yollarla əhatə olunur. Ona görə növbəti illərdə hökumətin qarşısında duran əsas infrastruktur layihələri arasında başlıca vəzifə içməli su layihələri və suvarma layihələri olacaqdır".

### "Ermənistan təkcə torpaqlarımızı yox, su resurslarımızı da işğal etmişdi"

**Dövlət başçısı vurğulayıb ki, Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində biz bu gün öz su mənbələrimizə tam sahib olmuşuq: "Vaxtilə Ermənistan təkcə bizim torpaqlarımızı yox, bizim su resurslarımızı da işğal etmişdir.**

Qarabağ və Şərqi Zəngəzurda mövcud olan su resursları bizim ümumi su resurslarımızın 25 faizini təşkil edir. Bu su resurslarının əsas xüsusiyyəti, müsbət tərəfi odur ki, bunlar daxili mənbələr hesabına formalaşan su resurslarıdır. Çünki bildiyiniz kimi, bizim əsas çaylarımız xaricdən gəlir - Kür çayı, Araz çayı, Samur çayı. Bizim əsas çaylarımız xaricdən gəlir, ona görə Qarabağın və Şərqi Zəngəzurun su resursları daxili mənbələr olduğu üçün bunun xüsusi əhəmiyyəti var. Biz qısa müddət ərzində böyük infrastruktur layihələrini icra etmişik və bu işlər davam etdirilir.

Bir müddət bundan əvvəl Ağdam rayonunda Xaçınçay su anbarının açılışı olmuşdur. Füzuli rayonundakı Köndələnçay su anbarının yaxın gələcəkdə açılışı olacaqdır. Hazırda Zabuxçay su anbarının inşası gedir. Suqovuşan su anbarı demək olar ki, yenidən qurulub və o anbardan çıxan iki kanalın biri artıq tam təmir edilib, ikinci kanal da təmir ediləcək və beləliklə, erməni işğalına görə sudan məhrum olmuş bir neçə rayona artıq su veriləcək. Yeni əkin sahələrinin həcmi 100 min hektara yaxın olacaq. Ona görə mən deyəndə ki, ən azı 500 min hektar torpağa su veriləcək, bunu nəzərdə tuturam. Nəzərə alsaq ki, Azərbaycanda suvarılan əkin sahələrinin həcmi o qədər böyük deyil, bu layihələrin xüsusi əhəmiyyəti var. Qarabağ və Şərqi Zəngəzurda digər böyük suvarma layihələri nəzərdə tutulur. Həkəriçay, Bərgüşadçay su anbarlarının və kanalların inşa edilməsi nəzərdə tutulur. Təbii ki, bütün bunlar böyük vəsait tələb edir. Azərbaycan dövləti güclü dövlətdir, öz gücünə, öz imkanlarına arxalanan dövlətdir. Biz Qarabağda və Şərqi Zəngəzurda elə genişmiqyaslı işlər görürük ki, bunun dünyada misli-bərabəri yoxdur".

✍ **_Sevinc_**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## Layihə



# Vətənpərvər gənclik

**_Sağlamdüşüncəli, milli mənlik şüuruna malik olan gənclərə bütün cəmiyyətlərdə ehtiyac var. Xüsusən də əhalisinin çox hissəsini gənclər təşkil edən ölkələrin gələcəyi məhz gənc nəslin yetişməsindən, onların milli mənlik şüurunun hansı formada inkişaf etdirilməsindən, vətənpərvərlik hisslərinin necə tərbiyə edilməsindən bilavasitə asılıdır._**

Ona görə də inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə sağlam düşüncəli, milli mənlik şüuruna malik gənc nəslin formalaşması əsas hədəflərdəndir. Dövlətçilik tariximizə nəzər salsaq görərik ki, ölkəmizdə bütün dövrlərdə gənc nəslin doğru yetişdirilməsinə xüsusi önəm verilib. 1918-ci ildən formalaşmağa başlayan milli mənlik şüuru, ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə yenidən yüksəliş dövrünə çatdı. Ölkədə baş verən ictimai-siyasi hadisələr dəyişdikcə, gənclər qarşısında duran problemlər və onların həlli yolları da dəyişməyə başladı. Bütün bunların nəticəsində Heydər Əliyevin Fərmanı ilə gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyi təsis edildi. Gənclərlə bağlı atılan növbəti addım 2 fevral 1996-cı ildə gənclərin I Forumunun keçirilməsi oldu. 1997-ci il fevralın 1-də forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən ulu öndər Heydər Əliyev 2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında Sərəncam imzaladı.

Əsası ulu öndər tərəfindən qoyulan gənclər siyasəti hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. Yeni nəslin inkişafının əsas amili gənclərin dövlət və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsidir. Bu məqsədlə ölkəmizdə bir çox silsilə addımlar atılır. Dövlət başçısının gənclərin potensialından ölkə mənafeyi naminə düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmini, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə 2005-ci il avqustun 30-da imzaladığı «Azərbaycan gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında» Sərəncamı da gənclərə dövlət qayğısının artırılması məqsədinə xidmət edir. 2007-ci il ölkədə «Gənclər İli»nin elan edilməsi gənclərlə bağlı davam edən siyasətin bir hissəsi idi.

> *Azərbaycanda həyata keçirilən gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib*

Azərbaycan gəncləri cəmiyyətin inkişafında fəal iştirak edir, mədəniyyət, incəsənət, iqtisadiyyat və digər sahələrdə nailiyyətlər qazanır, dövlətçiliyin möhkəmləndirilməsi prosesində yaxından iştirak edirlər. Xüsusilə hərb sahəsində şücaət göstərən Azərbaycan gəncliyini vurğulamaq lazımdır. Hazırda Azərbaycan Ordusu sıralarında Vətənin müdafiəsi kimi müqəddəs bir vəzifəni şərəflə yerinə yetirən şəxsi heyətin böyük əksəriyyətini gənclər təşkil edir. Orduda vətənpərvər, mənəviyyatca saf, fiziki cəhətdən sağlam gənclər xidmət edirlər.

Gənclər ölkənin bütün sahələrində dövlətçiliyin əsas dayağı funksiyasını yerinə yetirir və cəmiyyət həyatının müxtəlif sahələrində təmsil olunurlar, ən aktiv iştirak etdikləri sahələrdən biri isə könüllülük fəaliyyətidir. Azərbaycanda könüllülüyün tarixi kifayət qədərdir və bu fəaliyyət bizim milli dəyərlərimizin, eyni zamanda, sülhsevən və ümumbəşəri dəyərlərə nə qədər bağlı olduğumuzun ifadəsidir. XIX əsrin sonu XX əsrin əvvəllərinə nəzər salsaq, bir sıra xeyriyyə cəmiyyətlərinin yarandığını və insanlarımızın burada könüllülük prinsipi ilə müəllim, tibb bacısı və digər sahələrdə çalışdığını görə bilərik. Ölkəmiz müstəqillik əldə etdikdən sonra isə ictimai-siyasi proseslərdə könüllülərin kifayət qədər rolu olub. İlk yaranan könüllü özünümüdafiə dəstələrini, müharibəyə könüllü gedən həkim və tibb bacılarını misal kimi göstərmək olar. Qanlı 20 Yanvar hadisələri zamanı insanların xəstəxanalara könüllü gedərək qan verməsi də xalqımızın könüllülük dəyərlərinin bariz nümunələrindəndir.

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

Ölkəmizdə könüllülük daha geniş bir hərəkat halını alıb. Yeni konsepsiyada formalaşan hərəkat könüllülükdə yeni yanaşmanı ortaya qoyub və bunun bütün tərəflər üçün səmərəli bir fəaliyyət olduğunu sübuta yetirib.

■ **Mövzu ilə bağlı təhsil eksperti Kamran Əsədov deyir ki, Azərbaycanda həyata keçirilən gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib:** "Gənclərin vətənpərvərlik tərbiyəsinin, milli şüurunun inkişafı, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, məşğulluğunun artırılması, asudə vaxtlarının səmərəli keçirilməsi və digər məsələlərin həlli üçün dövlət proqramları qəbul edilib, Prezident fərmanı və sərəncamları imzalanıb, beynəlxalq hüquq prinsiplərinə əsaslanan qanunvericilik bazası yaradılıb.

Bilavasitə dövlətin diqqət və qayğısı nəticəsində Azərbaycan gəncliyi siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır, beynəlxalq elmi simpozumlarda, idman yarışlarında Azərbaycanı layiqincə təmsil edir, üçrəngli bayrağını böyük iftixar hissi ilə yüksələrə qaldırırlar. Gənclərin sağlam, vətənpərvərlik ruhunda böyüməsi dövlət-gənclər siyasətinin ən mühüm istiqamətlərindəndir.

Bu istiqamətdə həyata keçirilən işlər çoxşaxəlidir. Bir məqamı xüsusi vurğulamalıyam ki, Vətən müharibəsinin qələbəmizlə başa çatmasını təmin edən mühüm amillərdən biri məhz gənclər arasında vətənpərvərlik ruhunun aşılanması ilə bağlı uğurlu işin aparılması idi. 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük Vətən müharibəsi göstərdi ki, Azərbaycanda Vətənə, xalqa bağlı, torpaqlarımızın azad olunması uğrunda canlarından keçməyə hazır olan gənc nəsil formalaşıb". K.Əsədovun sözlərinə görə, ümumtəhsil məktəblərində həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə xidmət edir:

"Ümummilli lider Heydər Əliyev müəllimlərə tövsiyə xarakterli tarixi çıxışlarında bildirirdi ki, müəllimlər bütün qüvvə və bacarıqlarını doğma vətənə sədaqətli, hərtərəfli inkişaf etmiş, müstəqilliyimizi və dövlətçiliyimizi göz bəbəyi kimi qorumağa hazır olan nəslin yetişdirilməsinə sərf etməlidirlər. Vətən müharibəsindən sonra şagirdlərimizə aydın olub ki, vətənini sevən, öz xalqına və vətəninə sadiq və onların mənafeyi yolunda canından keçməyə hazır olan insan birmənalı olaraq vətənpərvərdir. Vətən böyüyüb, boya-başa çatdığımız, suyunu içib, havasını udduğumuz diyardır. Müharibədən sonra diqqəti çəkən, həm də odur ki, şəhid və qazilərin tələbə gənclər arasında tanıdılması, onların qəhrəmanlıqlarının təbliği istiqamətində tədbirlər həyata keçirilir".

■ **Mövzu ilə bağlı millət vəkili Ceyhun Məmmədov bildirir ki, hazırda ölkəmizdə bu istiqamətdə çoxsaylı tədbirlər görülür:** "Cənab Prezident İlham Əliyevin siyasi əqidəsi və Azərbaycan gənlərinin şücaəti ilə işğal altında olan torpaqlarımız işğaldan azad edilib. Müharibənin əsas ağırlığı isə Azərbaycan gənclərinin üzərində idi. Qarabağı azad etmək uğrunda gedən qanlı döyüşlərdə sinəsini sipər edən, cəsarətlə vuruşan və əli silahlı düşmənin üzərinə gedənlər ilk növbədə gənclər idi. Təbii ki, gənclərdə milli mənlik şüurunun formalaşdırılması siyasəti davam etdirilməlidir. Hər bir gənc mənsub olduğu millətə, vətənə yaxından

> *Danılmaz faktdır ki, əxlaqlı və tərbiyəli insanın milli mənlik şüuru da yüksək olur*

bağlanmalıdır. Bunun üçün də malik olduğu dəyərləri dərindən bilməyi vacib ünsürlərdən biridir. Məhz bu baxımdan ümumtəhsil ocaqlarında, ali təhsil müəssisələrində maarifləndirmə tədbirləri həyata keçirilməli və gənclərin təlim-tərbiyəsinə xüsusi önəm verilməlidir. Eyni zamanda ailələrdə də bu istiqamətdə işlər aparılmalıdır.

Ailədə yaxşı böyüyən və gözəl tərbiyə alan uşaqlar mütləq həm savadlı, bacarıqlı olacaq, həm də vətənə, xalqa gərəkli bir övlad kimi yetişəcək. Danılmaz faktdır ki, əxlaqlı və tərbiyəli insanın milli mənlik şüuru da yüksək olur. Tərbiyə insanın bütün yaş dövrləri üçün gərək olan yüksək keyfiyyətlərdən biridir. Övladlarının tərbiyəli və vətənpərvər böyüməsi hər bir valideynin öhdəliyidir. Gənclərdə hərbi-vətənpərvərlik tərbiyəsi milli mənlik şüuru ilə paralel şəkildə aparılmalıdır.

Müasir dövrdə təhsilin qarşısında qoyulan fəal vətəndaşlar yetişdirmək vəzifəsi də sistemli və ardıcıl aparılan vətənpərvərlik tərbiyəsinin nəticəsində reallaşdırılır. Vətənpərvərlik tərbiyəsinin əsası ibtidai siniflərdə qoyulur və digər mərhələlərdə inkişaf etdirilir. Bu baxımdan müəllimlərin üzərinə böyük məsuliyyət düşür. Müəllimlər gələcəyin şəxsiyyətlərinin formalaşmasında əvəzsiz rol oynayır. Məhz bu baxımdan müəllimlər maarifləndirmə tədbirlərinin çoxalmasına xüsusi önəm verməlidirlər".

✍ **_Sevinc_**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Rus sülhməramlıları Azərbaycanı tərk edir

◂ əvvəli 1-ci səhifədə

Azərbaycan separatçılara qarşı antiterror əməliyyatı keçirəndən sonra Azərbaycanın müvafiq qurumları sübut etdi ki, ərazisində yaşayan bütün millətlərin təhlükəsizliyi, konstitusiya hüququ təmin olunur. Azərbaycan dövlətinin apardığı siyasət, Qarabağda olan əhali ilə davranışı, ermənıərin mülkiyyətini, yaşayış yerlərini mühafizəyə alması Rusiyanın sülhməramlı qüvvələrinin ərazidə qalması zərurəti aradan qaldırdı".

Ekspert hesab edir ki, Rusiya sülhməramlılarının bölgədən çıxarılması ilə bağlı qərarı mövcud vəziyyəti dəyərləndirilərək verilib. Onun sözlərinə görə, bu qərarı Rusiya tərəfi qəbul edib və Azərbaycan da buna hörmətlə yanaşıb.

Ş.Ramaldanov hazırda Ermənistanda Qərbin, Avropanın diqtəsi ilə Rusiyaya qarşı gedən proseslərə, Rusiya-Ukrayna müharibəsinə diqqət çəkib. Onun fikrincə, Qarabağdan çıxan sülhmərsmlı missiya Ermənistanda yerləşən 102-ci bazanın gücləndirilməsi üçün istiqamətləndirilə bilər:

"Bu gün Ermənistanda Rusiyanın hərbi bazasına qarşı olan qüvvələrin aktivləşməsi müşahidə olunur. Bu Avropa, ABŞ tərəfindən planlaşdırılmış addımlardır. Ermənistanda gedən proseslər, Avropa İttifaqı müşahidə missiyasının bu bölgəyə gəlməsi, Brüsseldən sonra Rusiyaya qarşı pərdəarxası planların olması, Rusiyanın Ermənistandan çıxarılması hədəfi, eləcədə İrana qarşı Ermənistan ərazisindən istifadə etmək niyyətləri Rusiyanı əlavə tədbirlər görməyə məcbur edir. Azərbaycanda yerləşən sülhməramlı qüvvələrin 102-c baza tərkibində təcrübə və peşəkarlığından istifadə edilməsini istisna edilmir".

Ekspert hesab edir ki, bu, Azərbaycan dövlətinin növbəti uğuru kimi qəbul edilməlidir: "Ölkə lideri Azərbayacan xalqı, dövləti qarşıda qoyduğu bütün hədəflərə nail olur. Rusiya sülhməramlıların vaxtından əvvəl çıxması bunun göstəricisidir". Ş.Ramaldanov eyni zamanda hesab edir ki, Rusiyanın hərbi kontingentini Qarabağdan çıxarması Azərbaycanla etibarlı tərəfdaşlığın olmasından xəbər verir: "Rusiyanın Azərbaycanla strateji əməkdaşlığa əsaslanaraq belə addım atması müsbət qaşılanır".



■ **Politoloq Rəşad Bayramov hesab edir ki, Rusiyanın bütün gücü ilə Cənubi Qafqazda qalmaq istəyi fonunda, sülhməramlı missiya ilə vaxtından əvvəl ərazilərimizi tərk etməsi Azərbaycan dövlətinin xarici siyasətinin uğurudur.**

Onun sözlərinə görə, Rusiya Ermənistanla gərgin münsibətlər fonunda Azərbaycandakı sülhməramlıları rezerv qüvvə kimi saxlamışdı. Əgər rus qüvvələri əraziləri tərk edirsə, deməli Azərbaycan hakimiyyəti uğurlu danşıqlar aparmağa müvəffəq olub:

"Rusiya hərbi kontingenti Azərbaycan ərazisində sülhyaradıcı missiya qismində fəaliyyət göstərirdi. Antiterror tədbirləri və ermənilərin Qarabağdan çıxıb getməsindən sonra bu missiyanın qalmasının heç bir əhəmiyyəti yox idi. Bu baxımdan getməli idilər, getdilər. Sadəcə gözlənildiyindən tez getmələri sevindiricidir. Bu, Azərbaycanın xarici siyasət sahəsində mövqelərini gücləndirir və daha qətiyyətli addımlar atmağı imkanlar yaradır". Politoloq hesab edir ki, Ermənistanda olan hərbi bazanın qalması fonunda Azərbaycanda olan sülhyaradıcı missiyanın ərazilərimizdən çıxması Qərbin özündə də Azərbaycana qarşı münasibətlərin dəyişməsnə imkan yarada bilər.

R.Bayramov hesab edir ki, bunun Qərb tərəfindən regionda yaradılan gərginlik, yaxud müharibə ehtimalı ilə əlaqələndirilməsi istisnadır. Rusiya sülhməramlı qüvvələri bölgədə qalsa da, Azərbaycanla Ermənistanın yeni müharibə ehtimalında da özünü kənarda saxlaya bilərdi: "Əvvəla, hər hansı müharibə gözlənmir. Onsuz da sülhməramlı missiyanın sərhəddə mövqe tutması mümkün deyil. Qərbin, Avropanın Ermənistan sərhəddində yığdığı silahların da sülhməramlı missiyaya aidiyyatı yoxdur. Rusiyanın Ermənistanın içərisində 102-ci bazası var. Qərb, Avropa Ermənistana silah yığırsa, bundan sülhməramlılar deyil, 102-c baza narahat olmalıdır. Çünki Rusiya ilə Ermənistan arasında kəskinləşmə olarsa, hədəfə istiqamətlənən qüvvə 102-ci baza olacaq".

> Bu kontingentin Azərbaycanda vəzifəsiz şəkildə qalması Rusiyanın maraqlarına uyğun deyil

■ **Hərbi ekspert Ədalət Verdiyev bildirir ki, Rusiya hərbi kontingenti Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmişdi və münaqişə tərəfləri arasında atəşkəsə nəzarət etmək funksiyasını daşıyırdı.** Ekspert hesab edir ki, Azərbaycan ordusunun keçən ilin sentyabrında uğurla həyata keçirdiyi antiterror tədbirlərindən sonra ərazilərimiz separatçılardan təmzləndi və münaqişə tərəfi deyə anlayış qalmadığı üçün Rusiya hərbi kontingentinin yerinə yetirə biləcək funksiyası da aradan qalxdı:

"Belə olan halda bu kontingentin Azərbaycanda vəzifəsiz şəkildə qalması Rusiyanın maraqlarına uyğun deyil. Buna görə də qoşunlar yavaş-yavaş Azərbaycan ərazilərindən çıxarılır. Bu dəfə çıxarılan texnikaların sayı kifayət qədər böyük miqyasdadır. Çıxarılma prosesi aktiv fazadadır. 2025-ci ilin noyabrına qədər bu proseslər tamamilə yekunlaşacaq".

✍ *Tahirə Qafarlı*

# Xəzərdə süni torpaq sahələri ilə bağlı Baş Plan hazırlanacaq

**Süni torpaq sahələri yaradılarkən dəniz sahilinə yaxın və yaxud bitişik ərazilərdə tikintiyə Nazirlər Kabineti icazə verəcək. Bunu Dövlət Şəhərsalma və Aritektura Komitəsi aparatının Rəşad İsmayılov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib.**

O qeyd edib ki, Nardaran sahilində süni torpaq sahələrin yaradılması ilə bağlı planlar var. R.İsmayılovun sözlərinə görə, Xəzər dənizində süni torpaq sahələri ilə bağlı Baş Plan hazırlanacaq. Qeyd edək ki, qanun layihəsində Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılma formaları müəyyən olunub. Layihəyə əsasən, süni torpaq sahəsi Xəzər Dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində su fondu torpaqlarından ayrılan torpaq sahəsində (bundan sonra su fondu torpaq sahəsi) ayrıca və ya sahilboyu zolağa, adaya, yaxud digər süni torpaq sahəsinə bitişik formada yaradıla bilər.

Bu qanunun məqsədləri üçün süni torpaq sahəsi dedikdə Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində torpağın və ya qruntun daşınıb tökülməsi, yaxud səpilməsi yolu ilə və ya başqa üsullardan istifadə olunmaqla yaradılan torpaq sahəsi başa düşülür.

# Bu işçilərə kompensasiya veriləcək

**Gömrük orqanlarının vəzifəli şəxslərinə yeni qulluq yerinə köçmə, habelə əmlakın daşınması üçün xərclər və birdəfəlik kompensasiya ödəniləcək.**

Bu barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında müzakirə edilən "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklikdə öz əksini tapıb. Layihədə qeyd edilir ki, qeyd olunan xərclərin və kompensasiyanın ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən ediləcəkdir. Gömrük orqanlarında qulluq yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan gömrük orqanlarının vəzifəli şəxslərinə və onların ailə üzvlərinə yaşayış məntəqəsindən asılı olaraq mənzil kirayəsi üçün pul kompensasiyası ödəniləcəkdir. Pul kompensasiyasının ödənilmə qaydası və məbləği də müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən ediləcəkdir. Analoji mexanizm dövlət qulluğunun digər xüsusi növlərində xidmət keçməni tənzimləyən qanunvericilik aktlarında təsbit olunmuşdur və praktikada tətbiq olunur.

# Cənub sərhədlərimizdə müharibə təhlükəsi

***İran və İsrail arasında artan gərginlik bütün dünyada olduğu kimi, Azərbaycanda da diqqətlə izlənilir. İsrail Azərbaycanın əsas strateji tərəfdaşlarından biri, İran isə cənub qonşumuzdur. Təbii ki, bizə həddindən artıq yaxın olan bir coğrafiyada yaşanan gərginlik ölkəmizin milli maraqlarına da təsir edir. Belə bir vəziyyətin region və ölkəmiz üçün yaratdığı və ya yaradacağı təhdidlər geniş müzakirə edilir. Bəs ekspertlər bu barədə nə düşünür?***



■ **Arzu Nağıyev, millət vəkili:**

- İranla İsrail arasında olan gərginlik pik nöqtəyə çatıb. İranın Suriyadakı konsulluğunun bombalanması gərginliyi yaradan əsas səbəbdir. İran daim İsrailə qarşı dayanan dövlətləri, eləcə də HƏMAS-ı, "Hizbullah"ı dəstəkləyən ölkələrdən biridir. İran İsrailə qarşı ballistik raketlərdən, pilotsuz uçuş aparatlarından istifadə etsə də, ciddi nəticə əldə edə bilməyib. Eyni zamanda, ABŞ, Böyük Britaniya İsrailin cavab atəşi açmaması ilə bağlı müraciət edib, müəyyən tövsiyələr verib. Bu qarşıdurmanın nə ilə nəticələnəcəyi bəlli deyil. Əsas məqam odur ki, hadisədən öncə İran təhlükəsizlik baxımından öncə region, eləcə də digər dövlətlərə müraciət edərək hava məkanının bağlanması ilə bağlı müraciət etmişdi. Buna baxmaraq bir çox ölkələr, hətta ərəb dövlətlərindən İordaniya, Misir hava məkanını açıq saxladı. ABŞ, Böyük Britaniyanın hava hücumundan müdafiə qüvvələri İranın raketlərini sıradan çıxardı. Region, qonşu dövlətlər təhlükəsizlik baxımından öz işlərini görürlər. Azərbaycanın hava məkanı, quru əhəmiyyətli limanlarından digər ölkələrə qarşı heç vaxt istifadə olunmayacaq. İsrail və İran arasında olan gərginliyə baxmayaraq, Azərbaycan hər iki dövlətin ərazi bütövlüyünü dəstəkləyir. Biz müharibələrin əleyhinəyik. Xüsusilə də İran-İsrail toqquşması bizim region üçün arzuolunmazdır. Əgər İrana qarşı hücum olarsa, bu qonşu olkədə yaşayan çoxlu sayda azərbaycanlılara qarşı təhlükə doğura bilər. Eyni zamanda, dost İsrailin zərər görməsini istəmərik. Əgər qonşu dövlətdə müharibə olarsa, bu, azərbaycanlıların sərhədi keçərək bu və ya digər şəkildə Azərbaycana gəlmə ehtimalını artırır. Hələ ki, bölgə üçün təhlükə yaradacaq belə problem yaşanmır. Böyük dövlətlərin İsrailə, İrana müraciəti fonunda bu problem həllini tapıb. "Aprelin 1-də Suriyanın paytaxtı Dəməşqdə İran səfirliyinə edilən hücumdan sonra, İranın İsrailə hücum təşkil edəcəyi gözlənilirdi".

> İsrail və İran arasındakı gərginliyə baxmayaraq, Azərbaycan hər iki dövlətin ərazi bütövlüyünü dəstəkləyir

> Rusiyanın İranla Cənubi Qafqaz və xüsusən də Ermənistan, Zəngəzur dəhlizi ilə bağlı fikir və mövqe ayrılığı var

■ **Bunu isə hafta.az-a siyasi şərhçi Vüqar Dadaşov İran-İsrail toqquşması və bunun regiona təsirləri ilə bağlı açıqlamasında bildirib.** V.Dadaşov hesab edir ki, İkinci Dünya müharibəsindən sonra yeni dünya düzəninin qurulması, dünyanın bölüşdürülməsində İranın taleyi həlledici mərhələdədir. Onun sözlərinə görə, İran siyasi ritorikasında aqressiv, təhdid xarakterli publik bəyanat və çıxışlara üstünlük versə də, reallıqda Qərblə, ABŞ-la müharibədə maraqlı deyil. İran bu müharibənin necə nəticələnəcəyinin fərqindədir:

"İranın İsrailə hücumu siyasi nüfuz məsələsi ilə bağlı məcburi cavab idi. İran Dəməşqdəki səfirliyinə hücuma cavab verib və bu məsələnin tezliklə arxa plana keçməsini istəyir. Dəməşqdəki İran səfirliyinə hücumda, İranla birbaşa və uzunmüddətli müharibənin aparılmasında ABŞ-İsrail arasında fikir ayrılığı mövcuddur. İran-İsrail müharibəsinin başlanması və davam etdirilməsində ABŞ-la yanaşı, ərəb dünyası və qəribə səslənsə də, Rusiya çox maraqlıdır.

Bu, Rusiyanın Ukraynada apardığı müharibənin istəyinə uyğun yekunlaşmasını tezləşdirə bilər. Rusiyanın İranla Cənubi Qafqaz və xüsusən də Ermənistan, Zəngəzur dəhlizi ilə bağlı fikir və mövqe ayrılığı var. Qərbin təzyiqindən sonra, İranın Rusiyaya silah köməyini əhəmiyyətli dərəcədə azaltması, Rusiya ilə İran arasında müəyyən soyuqluğa səbəb olub".

✍ *Tahirə*

## XƏBƏRİNİZ OLSUN...



■ Ədliyyə Nazirliyində yeni təyinatlar olub. Ədliyyə naziri Fərid Əhmədovun müvafiq əmri ilə Əbülfət Həsənova nazirliyin Katibliyinin rəisi vəzifəsinin müvəqqəti icrası həvalə edilib. Nazirin digər əmrləri ilə İcra baş idarəsinin rəis müavini Fərid Əfəndiyev işdən azad edilib və həmin vəzifənin icrası Bərdə regional ədliyyə idarəsinin rəisi Fəqan Şabanova həvalə olunub.

---

■ "S&P Global Ratings" beynəlxalq reytinq agentliyi 2024-cü il üzrə Azərbaycanda işsizlik səviyyəsinin 5%-dən aşağı olacağını gözləyir. Qeyd edək ki, Beynəlxalq Valyuta Fondu yenicə açıqladığı hesabatında 2024-2025-ci illər üzrə Azərbaycanda işsizlik səviyyəsini 5,5% proqnozlaşdırıb.

---

■ Bütün bölgələrdə lisey və gimnaziyaların sayının artırılmasını hədəfləyirik. Bunu elm və təhsil naziri Emin Əmrullayev "Sabahın alimləri" XIII Respublika Müsabiqəsinin açılış mərasimində deyib. Nazir qeyd edib ki, bu tipli təhsil müəssisələri yalnız Bakı və Sumqayıtda deyil, ölkənin bütün bölgələrində olmalıdır: "Gələcəkdə hər bir bölgədə ən azı 2-3 təmayüllü lisey fəaliyyət göstərməlidir".

---



■ Tehranda son bir ildə ikinci dəfə metro, avtobus və taksilərdə gediş haqları bahalaşıb. Bu barədə Tehran Şəhər Şurası məlumat yayıb. Bildirilib ki, yeni gediş haqları aprelin 20-dən tətbiq olunacaq. Qiymət artımı metro və avtobuslarda 22 faiz, taksilərdə isə 45 faiz təşkil edib.

---

■ Venesuela Prezidenti Nikolas Maduro İranın İsrailə raket və PUA hücumlarına bəraət qazandırıb və bunu İsrailin cəzalandırılması adlandırıb. Bu barədə "Royters" məlumat yayıb. "Əgər sionist rejim İranın hücumuna cavab vermək istəsə, Üçüncü Dünya müharibəsi başlayacaq", - Maduro deyib.

---

■ Amerikalı alimlər insanın süni şəkildə yaradılması imkanlarını araşdırırlar. Bu barədə Stenford Universitetinin Ginekologiya və Mamalıq Departamentindən məlumat verilib. Alimlər bildiriblər ki, onlar məşhur ulduzları, o cümlədən artıq dünyasını dəyişmiş insanları klonlaşdıra biləcəklər.

---



■ 2024-cü ilin I rübü ərzində Azərbaycanın nəqliyyat sektoru üzrə gəlirləri ötən ilin müvafiq dövrü ilə müqayisədə 14,9% artaraq 3.154,5 milyon manat olub. Bunu rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev özünün "X" sosial şəbəkəsində paylaşımında qeyd edib. O bildirib ki, bununla da sektorun ÜDM-də payı 5,5%-dən 6,8%-ə yüksəlib.

---

■ Macarıstanın baş naziri Viktor Orban Aİ rəhbərliyini siyasi şantajda ittiham edib və bildirib ki, o, bütün əsas layihələri iflasa uğratdığı üçün istefaya getməlidir. Macarıstanın baş naziri Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayenin Budapeştin miqrasiya və anti-gender siyasəti ucbatından Aİ fondlarından pul almayacağını açıq şəkildə bəyan etməsinə məhz belə cavab verib.

# İran-İsrail qarşıdurması anlaşılmış oyun idi

***Siyasi təhlükəsizlik məsələləri üzrə ekspert Ərəstun Oruclu hafta.az üçün budəfəki söhbətində son İran-İsrail hərbi qarşıdurması, həmin qarşıdurmanın nə vaxtsa genişmiqyaslı savaşa çevriləcəyi halda bunun Azərbaycan üçün təhdid və təhlükələri, Rusiyanın artıq Şərqi Avropanın NATO üzvü olan ölkələri üçün də birbaşa təhlükə kəsb etdiyi ağır bir zamanda ABŞ Konqresi tərəfindən Ukraynaya yardımın bu dərəcədə ləngidilməsində subyektiv amillərin rolundan və s. bəhs etdi. 2024-cü ilin sonunadək Cənubi Qafqazdakı proseslər, o cümlədən Azərbaycan-Ermənistan sülh prosesinin gələcəyi haqda təxmin etdiyi proqnozları səsləndirdi.***

## Müsahib

***- İran və İsrail arasında aprelin 13-dən 14-nə keçən gecəki bir neçə saatlıq silahlı qarşıdurmanın nə vaxtsa genişmiqyaslı savaşa çevrilməsi hələ də mövcuddur. Bunun Azərbaycan üçün təhdid və təhlükələri nələrdən ibarət ola bilər?***

- ABŞ rəhbərliyi birmənalı şəkildə bildirdi ki, İsrailin Qəzzada apardığı əməliyyatlar zamanı dinc əhaliyə qarşı qətliamı ilə razı olmasa da, İsrail dövlətinə qarşı təhlükə yaranacağı halda, o, öz müttəfiqlik öhdəliklərini yerinə yetirəcək və Təl-Əvivin yanında olacaq. ABŞ-nin Yaxın Şərqdə müharibəyə cəlb olunacağı halda isə, əlbəttə ki, Rusiya da orada mövqe tutmağa can atacaq. Rusiyanın Yaxın Şərqə çıxmaq üçün keçəcəyi coğrafiya Cənubi Qafqazdır, özəlliklə də Azərbaycandır. Yəni İranla İsrail arasında geniş müharibə baş verəcəyi halda, Azərbaycan üçün yarana biləcək təhlükələrdən birincisi budur.

İkincisi, Azərbaycan İsraillə sıx, bəzən də kökləri və səbəbləri görünməyən dərin əlaqələrə malikdir. Bu amil İran tərəfindən təhdidlərə səbəb ola bilər.

Üçüncüsü, Azərbaycan İsrailin müttəfiqi və tərəfdaşı kimi, Rusiya tərəfindən hansısa təhdidlərə və bir sıra hallarda hərbi təhdidlərə məruz qala bilər.

Dördüncüsü, İsrail tərəfindən İran ərazisinə raketlər, dronlar, aviasiya bombardmanları və s. vasitəsilə kütləvi hücum olarsa, Azərbaycan humanitar böhranla üzləşə bilər. İran əhalisinin savaşdan xilas olmaq üçün qaçacağı bir neçə ölkə var ki, onlardan biri də Azərbaycandır. Mən deyərdim ki, bu mənada ölkəmiz birincilər sırasındadır. Unutmayaq ki, İran bizim 30 milyondan çox soydaşımızın yaşadığı bir ölkədir. Bu baxımdan da genişmiqyaslı İran-İsrail savaşının Azərbaycana ciddi təhdidləri ola bilər...

Təbii ki, başqa təhdidlər də var. İstənilən müharibənin müəyyən, iqtisadi, ekoloji çıxarışları olur ki, ölkəmiz də bunlara məruz qala bilər. Nəhayət, biz bilmirik ki, İsrail Azərbaycan ərazisindən İrana qarşı istifadə edə bilər, yoxsa yox... Əgər belə bir şey olarsa, Azərbaycan İran tərəfindən birbaşa hücuma məruz qala bilər. Hələlik, genişmiqyaslı İran-İsrail savaşı baş verəcəyi halda Azərbaycana qarşı yönələ biləcək təhdid və təhlükələr bunlardan ibarətdir...

***- İran-İsrail qarşıdurması ilə bağlı Azərbaycan hansı mövqeni tutmalıdır ki, milli maraqlarımıza zərbə dəyməsin?***

- Azərbaycanda, çox zaman olduğu kimi, bu konfliktlə bağlı da ictimai rəy parçalanır. Bir hissə, əsasən şiə dindarlardan ibarət olan kəsim İranın mövqeyini müdafiə edir və İranı qalib kimi göstərməyə çalışır. İsrailin mövqeyini dəstəkləyən digər tərəf isə bu ölkənin uğurunu qeyd edir. Əslində isə əvvəlki çıxışlarımda da qeyd etdiyim kimi, belə məsələlərdə Azərbaycanın dövlət olaraq hansısa tərəf tutması yanlış olardı. İranla İsrail arasında aprelin 13-dən 14-nə keçən gecəki son hadisələr də bitdikdən sonra bu fikri birmənalı şəkildə demək olar. Gördük ki, bir anlaşılmış oyun baş verdi. Buna hərbi qarşıdurma, müharibə və ya müharibəyə cəhd demək doğru olmaz. Son insidentin bütün iştirakçıları: həm İran, həm İsrail, həm də onların arasında de-fakto vasitəçilik edən ABŞ öz maraqlarını güddü. Əgər İranla İsrail arasında gedən oyunda üç tərəf iştirak edirsə və onların hər biri öz maraqlarını qoruyub həyata keçirməkdədirsə, Azərbaycanın marağı yalnız bundan ibarət olmalıdır ki, onun dövlət sərhədlərində, yerləşdiyi coğrafiyada sabitlik olsun. Bizim marağımızdadır ki, biz bu oyunlara qatılmayaq. Həm də ona görə ki, belə səhnələşdirilmiş oyunlar həmişə həmin oyunları anlamadan, onların dərinliyini anlamadan onlara qatılanların məğlubiyyəti ilə nəticələnir. Ümumiyyətlə, hesab edirəm, İranla İsrail bir-biri üçün çox əlverişli müştəridir. Odur ki, onların oyunlarına istənilən şəkildə qatılmaq, hətta deyək ki, istənilən şəkildə tərəflərdən birinə siyasi, diplomatik və s. dəstək ifadə etmək kökündən yanlış olardı...

> “
>
> *Azərbaycanın marağı bundan ibarət olmalıdır ki, onun dövlət sərhədlərində, yerləşdiyi coğrafiyada sabitlik olsun...*

***- Son İran-İsrail hərbi qarşıdurması anlaşılmış oyundur. Bəs bu oyunun mahiyyəti nədən ibarətdir və tərəflər, o cümlədən vasitəçilik edən ABŞ bundan nə qazandılar?***

- Əlbəttə, bu o demək deyil ki, Tehranla Təl-Əviv arasında müəyyən bir danışıq olubdu ki, mən bunu edəcəm - sən də buna belə cavab verəcəksən. İsraillə İranın Dəməşqdəki konsulluğunu vurmaq ona görə lazım idi ki, bölgədəki gərginliyi artırsın və Tehranı hansısa qarşılıqlı addım atmağa məcbur etsin (çünki bu günədək Tehran Təl-Əvivə qarşı yalnız öz proksilərindən istifadə edib) və elə bir situasiya yaratsın ki, İsrailə qarşı təhlükə və ya təhlükənin özü yaransın ki, Netanyahu hökumətini Qəzzadakı vəziyyətə görə tənqid edən Qərb dövlətləri, ilk növbədə, ABŞ mövqeyini dəyişib İsraili qorumağa məcbur olsun. Belə də oldu. Tehranda da bunu başa düşürdülər. Ağ evdən isə iki xəbərdarlıq olmuşdu: bir - İranın konsulluğunun vurulmasının ABŞ-yə heç bir aidiyyəti yoxdur; iki - İran İsrailə qarşı genişmiqyaslı hərbi addımlar atarsa, Amerika İsraili qoruyacaqdır. Bunu nəzərə alaraq Tehranda bəhs etdiyim son raket atəşləri, daha dəqiq desək, atəşfəşanlığı ilə kifayətlənməyə qərar verdilər. Bunun özü bir anlaşılmış oyundur. Şübhəsiz, bu, belədir. Bəs bu “oyun”dan kim nə qazandı? İsrail istədiyini əldə etdi: göstərdi ki, İrandan ona hücum var. Tehran istədiyini əldə etdi; sübut etdi ki, onun öz ərazisindən İsraili birbaşa vurmaq imkanları var. Düşünmürəm ki, İran bu hücumda ən müasir silahlarından istifadə etdi. Əsla elə deyil. Müharibədə, hərbi qarşıdurmada heç bir dövlət ilk növbədə ən müasir silahlarından istifadə etməklə qarşı tərəfə onları öyrənməyə imkan vermir. ABŞ isə ona nail oldu ki, bölgədə söz sahibi özünün olduğunu göstərdi. Bölgədə gərginlik var və gərginlik varsa, deməli, Pentaqon öz hərbi potensialını artırmalıdır. Bax, hesab edirəm ki, tərəflər bunları qazandı...



**Ərəstun Oruclu,**
siyasi təhlükəsizlik məsələləri üzrə ekspert

İsrailin, ilk növbədə, qazancı o oldu ki, Qəzza mövzusunu arxa plana keçirməyə nail oldu. Bu, çətin və ağır mövzudur. Bilirik ki, Qəzzada törədilən cinayətlərə görə İsrail hökuməti Cənubi Afrika Respublikasının müraciəti əsasında artıq beynəlxalq cinayət məhkəməsinə cəlb olunub. İndi dünən İsraili tənqid edən ölkələr, ilk növbədə də ABŞ, Britaniya və Fransa, artıq İsraili müdafiə edən müttəfiq rolunda çıxış edirlər. İranın da bir əlavə qazancını qeyd edim; Tehran öz əhalisinə göstərdi ki, onun ordusu İsraili və ümumiyyətlə, İrandan 1000-1500 km məsafədə olan və bu ölkə ilə heç bir quru sərhədi olmayan ölkələri, yaxud düşmənlərini vurmaq imkanına malikdir. Bu da Tehranda kütlələr tərəfindən bir toy-bayram kimi qəbul edildi. İran rejiminə də elə bu lazım idi...

***- Məşhur Britaniya nəşri “The Guardian”ın analitik köşə yazılarının birində isə qeyd edilir ki, İran İsrailə hücum etməklə Netanyahunun tələsinə düşüb. Tehranın hərəkətləri Netanyahuya dünyanın diqqətini İsrailin Qəzza zolağındakı hərəkətlərindən və HƏMAS-ı məğlub edə bilməməsindən yayındırmaq üçün unikal imkan yaradıb və s. Bu fikirlərə necə baxırsınız?***

- “The Guardian”ın qeyd etdiyiniz təhlili yetərincə əsaslıdır. Öncə dediyim kimi, İsrail İranı son addımı atmağa faktiki olaraq məcbur etdi. Elə bu da müəyyən mənada tələyə salmaqdır. İsrail illərdir ki, İranın istər hərbçilərini, istər digər rəsmilərini, nüvə fiziklərini və s. yalnız Suriyada deyil, elə İranın öz ərazisində də qətlə yetirir və bu cür əməllərinə davam edir. Dediyim kimi, İranın bütün bunlara yalnız hədə-qorxu ilə reaksiya verməsi onu qane etmirdi, məhz ona görə də hədəf kimi seçilən obyekt bu dəfə diplomatik missiyanın binası olmuşdu ki, artıq Tehran buna birbaşa cavabla reaksiya verməyə bilməzdi. Netanyahu bununla diqqətin Qəzzadan uzaqlaşdırılmasına nail oldu. Nəticədə, İsrail üçün ön plana faktiki olaraq İran təhlükəsi çıxdı. Bu da İsrailin bugünkü hökumətinə çox vacib lazım idi. Bununla Netanyahu həm də HƏMAS-ın 7 oktyabr əməliyyatı zamanı düçar olduğu uğursuzluğu və “Hizbullah”la üz-üzə gəlməkdən çəkinməsi ilə bağlı öz cəmiyyətinə izah edə bilmədiyi şeyləri indi İrandan gələn təhlükələrlə izah edəcək - İran isə artıq nə HƏMAS-dır, nə də “Hizbullah”...

***- İranın İsrailə raket zərbələri, deyəsən, artıq az qalıb bir il ola ki, Ukraynaya hərbi və maliyyə yardımını ləngidən ABŞ Konqresini də bir balaca silkələyib. Aprelin 15-də Nümayəndələr Palatasının spikeri Mayk Conson xarici yardımı Nümayəndələr Palatası vasitəsilə köçürmək planını açıqlayıb; Ukrayna, İsrail, Tayvana və digər milli təhlükəsizlik prioritetlərinə kömək etmək üçün dörd ayrı qanun layihəsi təqdim edib.***

Sizcə, Ukraynaya yardımın bu dərəcədə ləngidilməsində subyektiv amillərin rolu çoxdurmu?

- ABŞ-nin üç ölkəyə: Ukrayna, İsrail, Tayvana yardım layihəsinə gəldikdə, əlbəttə, Bayden administrasiyası o layihəni biləərəkdən belə təqdim etmişdi. Ona görə ki, respublikaçıların İsrailə yardıma etiraz edə bilməyəcəklərini bilirdi. Ukraynaya yardıma isə mütləq etiraz edəcəklər. Ukraynanın uğursuzluğu onların marağındadır: qarşıdan gələn seçkilərdə Trampın uğur qazanması üçün. Tayvan - Çin məsələsi də bir qədər mübahisəli idi. Bax, belə bir paket təqdim olunanda respublikaçılar, birbaşa Trampın adamı olan spiker Mayk Conson da buna manea yaratdı. Amma İranın İsrailə hücumu məsələni aktuallaşdırdı. Ona görə də respublikaçılar vəziyyətdən belə bir çıxış yolu tapdılar ki, məsələni ayrı-ayrı qanun layihələri şəklində müzakirə etsinlər, çünki İsrailə “yox” deyə bilmirlər. Bu halda ABŞ-də mövqelərini itirəcəklər, güclü İsrail lobbiçilərinin təzyiqi ilə üzləşəcəklər və bu da seçkiqabağı respublikaçılara lazım deyil. Onsuz da Trampın şansları durmadan azalmaqdadır. Düşdüyü məhkəmə, intim qalmaqallara görə... Bu səbəblərdən respublikaçılar belə addım atdılar. İndi isə sanki vəziyyətdən bir çıxış yolu tapdılar. İsrailə yardımla bağlı layihə, əlbəttə, tezliklə təsdiqlənəcək. Buna zərrə qədər şübhəm yoxdur. Ukraynaya yardımla bağlı layihə isə uzun-uzadı müzakirə və mübahisələrə səbəb ola, hətta, ola bilsin, yenidən gündəmdən çıxarıla bilər.Bütün bunların arxasında ABŞ-nin daxili siyasəti dayanır, bu siyasətdə demokratlarla respublikaçılar arasındakı qarşıdurma və Nümayəndələr Palatasına nəzarət edən trampist respublikaçıların faktiki olaraq sabotajı dayanır. Ağ ev administrasiyası bunu dəf edib Ukraynaya yardımı həyata keçirə biləcəkdimi - bunu söyləmək bir qədər çətindir. Qaldı ki, daxili siyasi mübarizə getdiyi bir məqamda, hakimiyyət uğrunda mübarizədə NATO müttəfiqlərinin taleyi trampistlər üçün önəmli deyil. Unutmayaq ki, Tramp bu gün də iddia edir ki, ABŞ hətta NATO-dan çıxa bilər. Yəni Tramp administrasiyası bir izolyasiyanist siyasət yürüdüb. İndi də söz verir ki, hakimiyyətə gəlsə, bir az da uzağa gedəcək - NATO-dan çıxacaq.

***- 2024-cü ilin sonunadək Cənubi Qafqazdakı proseslər, o cümlədən Azərbaycan-Ermənistan sülh prosesinin gələcəyi haqda hansı proqnozları vermək olar?***

- Azərbaycanla Ermənistan arasında sülh danışıqları da daxil olmaqla Cənubi Qafqazda bu ilin sonunadək gedəcək proseslərdən pozitiv bir irəliləyiş, müsbət bir nəticə gözləmirəm. Bunun üçün heç bir əsas yoxdur, ona görə ki, artıq Cənubi Qafqaz, təəssüf ki, yeni bir cəbhə xəttinə çevrilib. Bunu biz deyirdik, bu region mütləq bir mübarizə meydanı olacaq. Amma artıq bu proses baş verdi...

Hal-hazırda ciddi bir mübarizə Gürcüstan uğrunda gedir. Ermənistanla bağlı məsələ nəzəri baxımdan həll olunmaq üzrədir. Qərb Ermənistanı faktiki himayəyə götürdü və bu ölkəyə getdikcə dəstəyini gücləndirir. Bu işin içərisində Avropa Birliyi, NATO, Amerika Birləşmiş Ştatları, Fransa da ayrıca var. Lakin Gürcüstan uğrunda mübarizə davam edir, bu Cənubi Qafqaz ölkəsi Avropa Birliyinə namizəd kimi qəbul ediləndən sonra, çox güman ki, Rusiyanın təkidi və basqısı ilə həmin o “xarici agentlər” haqqında qanun layihəsi Gürcüstan parlamentinin gündəliyinə daxil edildi. Bununla da faktiki olaraq ölkədə daxili sabitliyi pozmaq üçün zəmin yaradıldı. Odur ki, Gürcüstan uğrunda mübarizə hələ də davam edəcək və bundan sonra mübarizə Azərbaycana keçəcək; Qərblə Rusiya arasında... “Qərb” dedikdə mən Türkiyəni də qeyd edirəm. Özü də ayrıca qeyd edirəm. Azərbaycan-Türkiyə münasibətlərinin spesifik cəhətlərinə baxmayaraq, Türkiyə də kollektiv Qərbin bir hissəsidir, NATO üzvü olan dövlətdir. Türkiyə bu məsələlərdə heç bir zaman Rusiya ilə eyni mövqedə olmayacaq. Ona görə də Rusiyanın Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına imkan verəcəyi inandırıcı görünmür. Əksinə, düşünürəm, Rusiya maksimal dərəcədə iki ölkə arasındakı vəziyyəti gərginləşdirməyə çalışacaq. O cümlədən də Qərbin Ermənistana yardımının qarşını almağa cəhd edəcək. Gürcüstandakı destabilizasiya da məhz bununla bağlıdır. Ermənistana yaradımların keçdiyi yeganə yol Gürcüstandır. Bu səbəbdən də indi Gürcüstanda bir daxili gərginlik yaradılır. Bu şərtlər çərçivəsində ilin sonunadək qalan cəmi 8 ay ərzində Cənubi Qafqazda, o cümlədən Azərbaycan-Ermənistan sülh prosesində hansısa pozitiv dəyişikliklərin olacağı inandırıcı görünmür. Əksinə, vəziyyət getdikcə daha da gərginləşə bilər. Biz hətta gözləmədiyimiz, ehtimal etmədiyimiz konfliktlərin də şahidi ola bilərik.

✍ *Sultan Laçın*



**■ Gürcüstan parlamenti etiraz aksiyaları fonunda “Xarici təsirlərin şəffaflığı haqqında” qanun layihəsini birinci oxunuşda qəbul edib. 83 deputat qanun layihəsinin qəbulunun lehinə səs verib.**

Qeyd edək ki, hakim “Gürcü arzusu” partiyası sözügedən qanun layihəsini aprelin 3-də parlamentə təqdim edib. Gürcüstanın əksər vətəndaş cəmiyyəti təşkilatları, ABŞ və Aİ də daxil olmaqla, Qərb tərəfdaşları qanun layihəsinin qəbul edilməsinin əleyhinə çıxış edir. Paytaxt Tbilisidə bir neçə gündür etiraz aksiyaları keçirilir. Gürcüstan Prezidenti Salome Zurabişvili isə hakim “Gürcü Arzusu” partiyasının “Xarici təsirlərin şəffaflığı haqqında” qanun layihəsinin qəbul edilməsində israr etməsini təxribat adlandırmışdı.



**■ Bakı-Supsa və ya Qərb İxrac Boru Kəməri (QİBK) istismara veriləndən bu ilin 1 aprel tarixinədək kəmər vasitəsi ilə 100 mln. ton neft nəql olunub. Bu barədə SOCAR-ın “Facebook” sosial şəbəkəsində xəbər verilir.**

“25 il öncə bu gün Ulu Öndər Heydər Əliyevin iştirakı ilə Bakı-Supsa neft ixrac boru kəməri istifadəyə verilib”, - paylaşımda bildirilir. Qeyd edək ki, QİBK başlanğıcını Səngəçal terminalından götürüb, Gürcüstanın Supsa terminalına qədər uzanır. Bu kəmər “Əsrin müqaviləsi” imzalanandan sonra Azərbaycanın qısa müddətdə yaratdığı neft ixracı sisteminin ayrılmaz bir hissəsidir. Kəmərin tikintisinə Azərbaycan və Gürcüstan arasında 1996-cı ilin martında imzalanmış Hökumətlərarası Sazişdən sonra başlanıb.




**■ “S&P Global Ratings” 2024-cü il üzrə Azərbaycanın iqtisadi artım proqnozunu müəyyən edib. “S&P Global Ratings” bu il üzrə Azərbaycanda real ümumdaxili məhsulda (ÜDM) 1,5% artım olacağını proqnozlaşdırıb.**

Bu isə S&P-nin ötən il açıqladığı 2024-2026-cı illər üzrə orta iqtisadi artım gözləntisindən 0,1 faiz bəndi çoxdur. Reytinq agentliyi, həmçinin 2024-cü il üzrə Azərbaycanda nominal ÜDM-in 76.08 milyard ABŞ dolları həcmində, adambaşına düşən ÜDM-in isə 7,364.82 dollar olacağını proqnozlaşdırıb.

Qeyd edək ki, Dünya Bankı Azərbaycanda iqtisadi artımı 2024-cü ildə 2,3%, 2025 və 2026-cı illərdə 2,4% səviyyəsində, Asiya İnkişaf Bankı 2024-cü ildə 1,2%, 2025-ci ildə isə 1,6% səviyyəsində proqnozlaşdırıb.



**■ Avroviziya-2024 beynəlxalq mahnı müsabiqəsində Azərbaycanın səslərini açıqlayacaq şəxs bəlli olub. Hafta.az İTV-yə istinadən xəbər verir ki, bu missiya Avroviziya-2009 təmsilçimiz Aysel Teymurzadəyə həvalə olunub.**

“12 points go to Mayın 11-i İctimai Televiziyanın efirində bu əfsanəvi sözləri Aysel tərəfindən eşidəcəyik!” - telekanalın paylaşımında deyilir. Xatırladaq ki, İsveçin Malmö şəhərində keçiriləcək “Avroviziya-2024” mahnı müsabiqəsinin yarımfinal mərhələləri bu il mayın 7-si və 9-u, final mərhələsi isə mayın 11-də baş tutacaq. Püşkatma nəticəsində Azərbaycan bu il 1-ci yarımfinalda çıxış edəcək. Müsabiqədə Azərbaycanı “Özünlə apar” mahnısı ilə müğənni Fəxri İsmayılov - Fahree və muğam ifaçısı İlkin Dövlətov təmsil edəcəklər.



**■ Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin idarə rəisi Akif Çovdarovun əmlakları ilə bağlı Bakı Apellyasiya Məhkəməsinin sonuncu qərarından verilən kassasiya şikayəti üzrə məhkəmə iclası keçirilib.**

Ali Məhkəmədə hakim Tahir Kazımovun sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub. Qərarə əsasən, kassasiya şikayətləri təmin olunmayıb, apellyasiya instansiyasının qərarı qüvvədə saxlanılıb. Qeyd edək ki, Bakı Apellyasiya Məhkəməsinin sonuncu qərarına əsasən, Akif Çovdarovun şikayəti rədd edilib və onun müsadirədən azad edilmiş 8-ci kilometr bazarı da daxil olmaqla 30 milyonluq əmlakı yenidən müsadirə edilib. Xatırladaq ki, Akif Çovdarov 2015-ci ildə saxlanılıb.



**■ “Mən Azərbaycan və burada yaşayan insanlar haqqında çox müsbət təəssüratlarla vətənə qayıdıram”. Bunu Ukrayna səfiri Vladislav Kanevski Azərbaycanda diplomatik missiyasının başa çatması ilə bağlı “Facebook” hesabında paylaşımında bildirib.**

“Dost Azərbaycanda Ukraynanı təmsil etmək mənim üçün şərəf idi. Bu, suverenliyini və ərazi bütövlüyünü bərpa etmiş, sürətlə inkişaf edən bir ölkədə diplomatik həyatımın parlaq, məzmunlu və səmərəli dövrü idi. Azərbaycanlılara öz ölkələrinin zəngin tarixini, mədəniyyətini və adət-ənənələrini daha yaxından tanımağa, Azərbaycana rəğbət hissini inkişaf etdirməyə kömək etdiklərinə görə minnətdaram. Azərbaycanlılar, siz çox gözəlsiniz!”.

# Azərbaycan ilk yeddilikdə

***Beynəlxalq Valyuta Fondu (BVF) dünya ölkələrində investisiya cəlbediciliyi mühiti ilə bağlı 2024-cü ilə dair hesabatını açıqlayıb. Qeyd edək ki, hesabatda Azərbaycan ən yaxşı investisiya mühitinə malik "Top-7"qrupunda qərarlaşdırıb. Belə ki, ölkəmiz ən malik yer alıb. Yeri gəlmişkən, Mərkəzi Bankın məlumatına görə, 2023-cü ildə Azərbaycan iqtisadiyyatına cəlb edilən birbaşa xarici investisiyaların ümumi məbləği 6,7 milyard dollar təşkil edib. Bu, 2022-ci illə müqayisədə 6,1 faiz çoxdur.***

## Reytinq

Ölkə iqtisadiyyatına yatırılmış birbaşa xarici investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisi 69,9 faiz təşkil edib. Qeyri-neft-qaz sektoruna cəlb olunmuş birbaşa xarici investisiyaların ümumi məbləği 2 milyard dollar olub.

2023-cü ildə Azərbaycana birbaşa xarici investisiya qoyan ilk 5 ölkə aşağıdakılardır:

- Böyük Britaniya (1,9 milyard dollar),
- Türkiyə (1,3 milyard dollar),
- Kipr (792 milyon dollar),
- Rusiya (617 milyon dollar),
- İran (396 milyon dollar).

Təbii ki, Azərbaycanın dünyanın aparıcı maliyyə institutunun hesabatında irəliləməsinə həm iqtisadi, həm də hüquqi amillər səbəb olub. Nəzərə almaq lazımdır ki, son illər xüsusilə xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi üçün ciddi hüquqi islahatlar həyata keçirilib, investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, əldə edilmiş mənfəətdən maneəsiz istifadə olunması ilə bağlı mühüm qanunlar qəbul edilərək hüquqi baza yaradılıb. "İnvestisiya fəaliyyəti haqqında" və "Xarici investisiyaların qorunması haqqında" qanunların qəbul edilməsi davamlı şəkildə sərmayə artımlarına təkan verib. Bundan başqa, Azərbaycan hökumətinin bir sıra xarici ölkələrlə ikiqat vergi tutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalaması da investisiya qoyuluşunu təşviq edib. Azərbaycan beynəlxalq müstəvidə ikitərəfli əməkdaşlıq çərçivəsində 30-dək ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalayıb. Bu tədbirlər xarici investorların, beynəlxalq maliyyə qurumlarının və iqtisadi təşkilatların Azərbaycana olan marağının daha da artırıb. 2003-2022-ci illər ərzində ölkə iqtisadiyyatına yönəldilən investisiyaların ümumi həcmi 310,4 milyard dolları təşkil edib ki, onun 154 milyard dolları xarici investisiyalardır. Eyni zamanda, ölkəmizdə biznes mühitinin əlverişliliyinin daha da artırılması və biznesə başlama prosedurlarının sadələşdirilməsi üçün zəruri tədbirlərin görülməsi məqsədilə "bir pəncərə" prinsipinin tətbiqi xarici və yerli sahibkarların fəaliyyətində yeni mərhələnin başlanmasına səbəb olub. "Bir pəncərə" sisteminin tətbiqindən sonra Azərbaycanda biznesə başlama prosedurları 15-dən 1-ə və bunun üçün sərf olunan vaxt 30 gündən 3 günə endirilib. Məhz bu tədbirlər sayəsində Azərbaycanın beynəlxalq miqyasda investisiya cəlbediciliyi yüksəlib.




> *Azərbaycanda ictimai-siyasi spektrda həyata keçirilən tədbirlər faktiki olaraq ölkəmizin bir sabitlik adasına çevrilməsinə şərait yaradıb*

**■ Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən iqtisadçı alim Əli Əlirzayev deyib ki, son illər Azərbaycanın dünya miqyasında investisiya üçün cəlbedici ölkə statusu daha da güclənib:**

"Bu gün ölkədə yaradılmış həm siyasi, həm iqtisadi sabitlik Azərbaycanı investorlar üçün cəlbedici dövlətə çevirib. İnvestorlar üçün xüsusilə siyasi sabitlik olduqca önəmlidir. Çünki iş adamları öncə yatırdıqları sərmayənin nə qədər etibarlı qoruna biləcəyinə baxırlar. Siyasi-iqtisadi sabitliyi olmayan ölkə ilə heç vaxt maraqlanmırlar. Azərbaycanın bir sıra regional və qlobal layihələrdə sərmayədar kimi hazırkı rolu onu mühüm geosiyasi oyunçuya, eləcə də beynəlxalq imicə malik ölkəyə çevirib. Bu gün ölkəmizə, xüsusən də birbaşa investisiyaların yatırılması mühüm əhəmiyyət daşıyır. Birbaşa investisiyalar uzunmüddətli dövr üçün qoyulur, eyni zamanda rəqabəti artırır. Həm neft-qaz sektoruna, həm də qeyri-neft-qaz sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsi müsbətdir".

**■ Mövzu ilə bağlı iqtisadçı ekspert Elşad Məmmədli də qeyd edib ki, xarici investor ölkəyə sərmayə qoyarkən, onu ilk növbədə zəmanət məsələsi düşündürür: "Azərbaycanda ictimai-siyasi spektrdə həyata keçirilən tədbirlər, faktiki olaraq, ölkəmizin bir sabitlik adasına çevrilməsinə şərait yaradıb.**

Bu da investisiyaların cəlbi nöqteyi nəzərdən olduqca önəmlidir. Digər tərəfdən, sosial-iqtisadi bloka nəzər yetirdikdə görürük ki, son illər ərzində, xüsusilə son 6 il ərzində sosial sahədə aparılan islahatlar nəinki əhalinin geniş kateqoriyalarının sosial rifahının yüksəldilməsinə, həm də daxili bazarın stimullaşdırılmasına, daxili bazara təkana nail olmaq üçün bizə yeni imkanlar açıb. Bu, önəmli şərtdir. Xarici investor ölkəyə sərmayə qoyanda, onu ilk növbədə düşündürən məqamlardan biri zəmanət məsələsidir, ölkənin maliyyə vəziyyətidir. Torpaqlarımızın işğaldan azad edilməsi ilə isə həm Azərbaycanın nüfuzuna, gücünə inam, həm də ölkəyə investisiya cəlbi imkanları artıb. İndi Azərbaycan Qarabağ və Zəngəzura xarici investorların cəlbi istiqamətində fəal iş aparır. Bu məqamda BVF-nin Azərbaycanı 7 ən cəlbedici ölkədən biri elan etməsi xarici investorların ölkəyə daha inamlı gəlişinə şərait yaradacaq. Ölkəyə birbaşa investisiya qoyuluşu isə rəqabətliliyi daha da artıracaq, beynəlxalq bilik və texnologiyalar gətirəcək, onların marketinq siyasətini öyrənəcəyik, ixrac potensialımız da artacaq".

Mövzu ilə bağlı Liberal İqtisadçılar Mərkəzi İctimai Birliyinin sədri Akif Nəsirli bildirib ki, Valyuta Fondunun Azərbaycanı dünyanın 7 ən cəlbedici investisiya ölkəsindən biri elan etməsi ölkə iqtisadiyyatının gələcək inkişafı üçün olduqca əhəmiyyətlidir:

"Bu o deməkdir ki, Azərbaycan bütün dünyada investisiya yatırımları olan 7 ölkədən biridir. Fond Azərbaycanın investisiya mühiti barədə kifayət qədər nikbindir. Bu qurum sadə bir təşkilat deyil, onun açıqlaması da təsadüfi xarakter daşımır. Təbii ki, təşkilat Azərbaycanın investisiya mühitini araşdırıb, nəticələrə uyğun olaraq ölkəmizi 7 ən cəlbedici investisiya ölkəsindən biri elan edib. Bunun səbəbləri, yəqin ki, son illər ölkə iqtisadiyyatında liberallaşmanın aparılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, digər tərəfdən, Azərbaycanın dövlət olaraq beynəlxalq aləmdə imicinin yaxşılaşması ola bilər. Eyni zamanda, Fondun açıqladığı göstəricilər həm də son illər ölkəmizə qoyulan xarici investisiyanın həcminin artması amili ilə bağlıdır".

> *Beynəlxalq Valyuta Fondunun Azərbaycanı dünyanın 7 ən cəlbedici investisiya ölkəsindən biri elan etməsi ölkə iqtisadiyyatının gələcək inkişafı üçün olduqca əhəmiyyətlidir*

✍ *Sevinc*

## İstehlak

# Qiymətlər ucuzlaşacaq?

***Asiya İnkişaf Bankı (AİB) Azərbaycanda inflyasiya ilə bağlı proqnozlarını yeniləyib. Bank ekspertlərinin proqnozlarına görə, 2024-cü ildə Azərbaycanda orta illik inflyasiya 5,5 faiz təşkil edəcək, 2025-ci ildə isə daha sürətli iqtisadi artımla 6,5 faizədək yüksələcək. Bu barədə bankın "Asiyanın inkişaf perspektivləri"nin aprel hesabatında deyilir. Xatırladaq ki, ADB-nin əvvəlki (sentyabr 2023) qiymətləndirməsinə əsasən, 2024-cü il üçün inflyasiya 8,5 faiz səviyyəsində proqnozlaşdırılmışdı.***

Hesabatda tövsiyə edilir ki, inflyasiya nəzarətdə saxlanılmalı və hökumət proqnozlaşdırılan dövr ərzində qiymətlərə nəzarət etməlidir: "Məzənnənin sabitliyinin qorunması idxal inflyasiyasının təsirini yumşaldacaq. Azərbaycan Mərkəzi Bankının (AMB) uçot dərəcəsini ən azı 2024-cü ilin ortalarına qədər eyni səviyyədə saxlayacağı gözlənilir, dəyişikliklər etməzdən



əvvəl isə qiymət dinamikasını və istehlakçı əhval-ruhiyyəsini izləməcək".

AİB-nın analitikləri hesab edirlər ki, Azərbaycan manatının ABŞ dollarına nisbətdə sabit qalması ötən il idxal olunan inflyasiya təzyiqinin qarşısını almağa kömək edib. 2023-cü ilin may ayına qədər AMB uçot dərəcəsini üç mərhələdə 8,25 faizdən 9 faizə qaldırıb, sonra isə inflyasiyanın azalması ilə oktyabr-dekabr aylarında iki mərhələdə onu 8 faizə, 2024-cü ildə isə fevralda 7,75 faizə, martda 7,5 faizə endirib.

Qeyd edək ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-mart aylarında Azərbaycanda istehlak qiymətləri indeksi ötən ilin müvafiq dövrü ilə müqayisədə 101 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 99,7 faiz, qeyri-ərzaq malları üzrə 101,4 faiz, əhaliyə göstərilən pullu xidmətlərə görə isə 102,5 faiz təşkil edib.

Ötən ay isə Azərbaycanda inflyasiya 2023-cü ilin mart ayına nisbətən 0,4 faiz təşkil edib. Bu zaman qida məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri 1,2 faiz azalıb, qeyri-qida məhsullarının qiyməti 1,1 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri isə 2,2 faiz artıb. 2024-cü ilin mart ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 0,2 faiz, yanvar-mart aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 1 faiz yüksəlib.

Mart ayında qida məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 0,4 faiz artıb, yanvar-mart aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,3 faiz azalıb. Qeyri-qida malları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən dəyişməyib, yanvar-mart aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,4 faiz artıb. Əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri əvvəlki aya nisbətən 0,1 faiz, yanvar-mart aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,5 faiz artıb. Başqa sözlə, Azərbaycanda 2024-cü ilin mart ayında inflyasiya fevraldakı 0,6 faiz qarşılığında 0,2 faiz olub, il ərzində isə 0,4 faiz təşkil edib.

Xatırladaq ki, Azərbaycan hökuməti 2024-cü il üçün orta illik inflyasiyanı 5,3 faiz səviyyəsində proqnozlaşdırır. 2023-cü ildə Azərbaycanda orta illik inflyasiya 8,8 faiz təşkil edib.

**■ Məsələni qəzetimizə şərh edən iqtisadçı ekspert Pərviz Heydərov deyib ki, beynəlxalq maliyyə qurumlarının verdiyi proqnoz nisbi xarakter daşıyır:** "Ümumiyyətlə, inflyasiya və digər iqtisadi göstəricilərlə bağlı uzunmüddətli proqnoz vermək qeyri-mümkündür. Verilən proqnozların özünü nə dərəcədə doğruldub-doğrultmayacağına gəlincə, inflyasiyadan danışdıqda biz nəzərə almalıyıq ki, manatın məzənnəsi inzibati yolla tənzimlənir.

Yəni ölkədə sərbəst üzən məzənnə rejimi adlı bir valyuta idarəçiliyi mexanizmi hökm sürmür. Halbuki, qonşu ölkələrdə milli pul vahidlərinin ABŞ valyutasına nəzərən dəyərdən düşməsi onların real alıcılıq qabiliyyətinə ciddi zərbə vurur. Təbii ki, inflyasiya daha çox idxaldan asılı vəziyyətdə olduğumuz, xarici təsirlər səbəbi ilə bağlıdır. 2021-2022-ci illərdəki inflyasiya, bahalaşma tendensiyası da bu səbəbdən ortaya çıxmışdı. Keçən il, sözügedən tendensiya qlobal miqyasda zəifədiyindən may ayından bizdə də özünü göstərməyə başladı. Yəni, prosesin sürəti zəifləli. Ancaq ötən il ərzində inflyasiya ilə bahalaşma əslində, yenə istənilən həddə enmədi. Qlobal bazarlarda ucuzlaşma yanvardan müşahidə olunmağa, yəni enerjidaşıyıcıların qiymətlərindəki eniş ərzaq məhsulları üzrə ucuzlaşmaya 2023-cü ilin başlanğıcından start verməyə başlasa da, ölkədə

> *İnflyasiya və digər iqtisadi göstəricilərlə bağlı uzunmüddətli proqnoz vermək qeyrimümkündür*

ümumi temp ilin sonuna 8,8 faiz təşkil etdi. Düzdür, əvvəlki illərin yekununa görə sözügedən rəqəm ikirəqəmli həddə idi. Odur ki, xarici və daxili amillərin təsirləri nəticəsində məhz keçən il illik inflyasiya səviyyəsi azaldı. Yəni, qlobal iqtisadi aktivliyin zəifləməsi, əmtəə, enerji və ərzaq qiymətlərində azalmanın davamı ölkəmizə inflyasiya idxalını məhdudlaşdırdı".

İqtisadçı qeyd edib ki, hazırda inflyasiya səviyyəsi əvvəlki illərlə müqayisədə xeyli dərəcədə zəifləyib: "Düzdür, bizdə inflyasiya enişi kəskin deyil, amma proses davam edir. Qarşıdan əkin-biçin dövrü gəlir. Bazarlarda, xüsusilə kənd təsərrüfatı məhsullarının bolluğu müşahidə ediləcək. Təxminən, qiymət enişi payıza qədər davam edəcək. Növbəti dövrdə inflyasiyanın necə inkişaf edəcəyinə gəlincə, bu qlobal bazardakı vəziyyətdən asılı olacaq. Hesab edirəm ki, ilin sonunadək ölkəmizdə inflyasiya birrəqəmli şəkildə təşkil edəcək. Çox güman ki, bu hökumətin irəli sürdüyü proqnozlardan bir qədər yüksək olacaq".

Onun fikrincə, bu il hökumət manatın məzənnəsini də qorumağa çalışacaq: "Sözsüz ki, məzənnənin sabitliyinin qorunması idxal inflyasiyasının təsirini yumşaldacaq. Təbii ki, bizdə milli valyutanın məzənnəsi birbaşa neftin qiymətindən asılıdır. Yəni, manatın məzənnəsi inzibati yolla tənzimlənir. İlin sonuna kimi də məzənnənin sabitliyi qorunub saxlanacaq. Neftin qiyməti indiki səviyyədə rəqs etməyə davam edərsə, böyük ehtimalla, növbəti ildə də kurs dəyişməyəcək".

✍ *Sevinc*

# Mənzil bazarında durğunluq hökm sürür

***2024-cü ilin I rübündə Azərbaycanda mənzil bazarında qiymətlər 2024-ci ilin I rübünə nisbətən, 8.1 faiz bahalaşıb. Cari ilin I rübündə ilkin mənzil bazarında qiymətlər, ötən ilin müvafiq dövrü ilə müqayisədə 7.5 faiz, təkrar mənzil bazarında qiymətlər isə 8.1 faiz artıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin I rübündə mənzil bazarında qiymət indeksi əvvəlki rüb ilə müqayisədə 2,2 faiz, o cümlədən ilkin mənzil bazarı üzrə 3.1 faiz, təkrar mənzil bazarı üzrə 2,2 faiz bahalaşıb.***



Qeyd edək ki, son illər Azərbaycanın mənzil bazarında davamlı bahalaşma müşahidə edilməsinə baxmayaraq xarici ölkə vətəndaşları Azərbaycanın daşınmaz əmlak bazarını qiymətləndirməyə başlayıblar. Onların əksəriyyəti isə turist kimi ölkəmizə səfər edən əcnəbilərdir. Məsələn, statistikaya görə, təkcə ötən il ərzində Azərbaycana gələn turistlərin 1 milyon 902 min 431-i özünün buradakı evində gecələyib. Azərbaycanın daşınmaz əmlak bazarını qiymətləndirən əcnəbilər arasında Rusiya, Gürcüstan, Türkiyə, İran, Birləşmiş Ərəb Əmirlikləri və İsrail vətəndaşları üstünlük təşkil edir. Bəs, görəsən, İranla İsrail arasında baş verən son gərginliyin Azərbaycanın əmlak bazarına hansısa təsiri olacaqmı?

**■ Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən əmlakçı Mülkədar Rüstəmov deyib ki, hazırda Azərbaycanın mənzil bazarında durğunluqdur:** "Son statistikaya görə bizim ölkədə mənzil alanların böyük əksəriyyəti Rusiya vətəndaşlarıdır. İkinci Gürcüstan, üçüncü Türkiyə, dördüncü İran, beşinci Birləşmiş Ərəb Əmirlikləri, altıncı yerdə İsrail vətəndaşları qərarlaşıb. Amma hazırda bu sahədə durğunluqdur. İranla İsrail arasında baş verən gərginliyin Azərbaycanın əmlak bazarına təsirinə gəlincə, bununla bağlı konkret fikir söyləmək çətindir. Bu hadisə qısa müddət ərzində baş verdi. Əgər uzunmüddətli bir proses olsaydı, konkret nəysə söyləmək olardı. Çünki həm İranla, həm də İsraillə ticarət baxımından heç bir problemimiz yoxdur".

> *Son statistikaya görə bizim ölkədə mənzil alanların böyük əksəriyyəti Rusiya vətəndaşlarıdır*

> *İranla İsrail arasında baş verən son gərginliyin bazara təsirini hələ ki, hiss etmirik*

**■ Məsələyə münasibət bildirən əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimov isə deyib ki, sözügedən ölkələr arasında baş verən gərginlik Azərbaycanın daşınmaz əmlak bazarına hansısa formada təsir etməyib:** "Məlumdur ki, artıq daşınmaz əmlakın alqı-satqısı zamanı notariatlar vətəndaşlardan deklarasiya tələb edirlər. Bu tələblə bağlı bazarda durğunluq idi. Son bir aydır ki, əmlak bazarında cüzi də olsa, hərəkət var. İnsanlar yeni tələblə barışaraq tədricən bazara qayıdırlar. İranla İsrail arasında baş verən son gərginliyin bazara təsirini hələ ki, hiss etmirik".

✍ *Rəna*

# Günlük kirayə mənzillər ucuzlaşır

**_Son vaxtlar paytaxtın kirayə mənzil bazarında fərqli tendensiya müşahidə olunur. Belə ki, bu ilin əvvəlindən xüsusilə günlük təklif olunan kirayə mənzillərdə qiymət enməsi qeydə alınıb. Məsələn, onlayn bronlaşdırma sistemi olan booking.com-da cari ilin yanvar-aprel ayları üçün Bakıda 2 ulduzlu mənzillərdə sutkalıq kirayənin orta qiyməti 106 manat təşkil edib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 6,8 faiz azdır. Hesabat dövründə paytaxtdan başqa digər şəhər və rayonlarda bir gecə qalmaq üçün 2 ulduzlu mənzillər olmayıb._**



## Cəmiyyət

Qeyd edək ki, günlük kirayə evlər, əsasən, turistlər tərəfindən bron edilir. Maraqlı məqam ondan ibarətdir ki, ötən illərlə müqayisədə bu ilin ilk aylarında Azərbaycana gələn turistlərin sayı artıb. Ekspertlər pandemiyadan sonra ölkədə turizm sektorunun təxminən 90 faizinin bərpa olunduğunu bildirirlər. Təkcə bu ilin ilk 2 ayında Azərbaycana gələn turistlərin sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə, 46.7 faiz artaraq, 341 min nəfər olub.

Bu dövrdə də qonşu ölkələr ilk üçlüyü formalaşdırıb: gələnlərin 26,8 faizi Rusiya, 19,9 faizi Türkiyə, 9,8 faizi İranın payına düşüb. Ümumi turistlərin 6,9 faizi Hindistan, 4,8 faizi Gürcüstan, 3,4 faizi Səudiyyə Ərəbistanı vətəndaşları olublar. Eyni zamanda, ərəb ölkələrindən gələnlərin sayında yenidən artımlar müşahidə edilməyə başlayıb. Belə ki, bu ilin yanvar-fevral aylarında körfəz dövlətlərindən gələnlərin sayı 1.7 dəfə artıb. Eyni artım Avropa İttifaqından gələnlərin sayında qeydə alınıb.

*Amma qiymətlərdə bundan aşağı azalma gözləmirəm*

Rəsmi statistika göstərir ki, Körfəz ölkələrindən, xüsusən də Səudiyyə Ərəbistanı və Küveytdən gələnlərin sayında artımlar müşahidə olunmaqdadır. Bütövlükdə, turistlərin sayına Bakıdan uçuşların sayının artması və eləcə də ekonom reyslərin çoxalması da təsir göstərib. Bəs, görəsən, belə bir şəraitdə kirayə mənzil bazarında qeydə alınan ucuzlaşmanın səbəbi nədir? Mənzil bazarında nə baş verir?

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimov deyib ki, hazırda sözügedən seqmentdə təklifin həcmi artıb:**

"Birinci faktor təklifin artması ilə bağlıdır. Son illər bu seqmentdə təklif əhəmiyyətli dərəcədə artıb. Təbii haldır ki, təklif artırsa, bu qiymətlərə təsir göstərməlidir. İkinci faktor isə ondan ibarətdir ki, əvvəllər sahibkarlar 4-5 ulduzlu otellərin tikintisinə üstünlük verirdilər. İndi bu sahədə vəziyyət dəyişib və daha çox hostellərin, kiçik həcmli otellərin tikintisi artıb. Bütün bunlar nəticə etibarilə qiymətlərə təsir göstərib və qiymətlərdə az da olsa geriləmə var". Ekspert bu sahədə daha ciddi qiymət azalmasını proqnozlaşdırmır. Onun fikrincə, dünyada, o cümlədən Azərbaycanda müşahidə olunan inflyasiya buna imkan verməyəcək: "Yaşam xərcləri ildən-ilə bahalaşır. Ola bilər ki, kirayə mənzilin orta qiyməti 100 manata kimi ucuzlaşsın. Amma qiymətlərdə bundan aşağı azalma gözləmirəm".

■ **Mövzu ilə bağlı tikinti və əmlak məsələləri üzrə ekspert Elnur Azadov da təsdiqləyib ki, bazarda 2 ulduzlu mənzillərin sayı artıb. Onun sözlərinə görə, bu sahə bəzi turizm bələdçiləri üçün əlavə qazanc yerinə çevrilib:** "Məsələn, bələdçi hansısa evi 1 aylıq kirayə götürür, günlük kirayəyə təklif edir. Təbii ki, həmin şəxsin kifayət qədər geniş çevrəsi olur və evlə bağlı məlumatları digər bələdçilər arasında yayır. Həmin bələdçilərə də otellərdən daha çox faiz təklif edir. Beləliklə, öz ətrafında müəyyən bir çərçivə yaradır və öz biznesini qurur. Başqa bələdçilər də həmin şəxsə baxıb rəqib olmağa çalışırlar. Bu rəqabət getdikcə çoxalır, nəticədə qeyd olunan seqmentdə mənzillərin sayı artır, qiymət isə aşağı düşür".

*Mənzillərin sayı artır, qiymət isə aşağı düşür*

✍ *Müşfiq*

## HƏFTƏ REYTİNQ

### Həftənin MƏRHUMU



Sabiq millət vəkili Hadi Rəcəbli vəfat edib. O, 76 yaşında dünyasını dəyişib. Mərhumun qardaşı İqbal Rəcəbli bildirib ki, Hadi Rəcəbli ürəktutmadan vəfat edib.

Qeyd edək ki, H. Rəcəbli I-V çağırış Azərbaycan Milli Məclisinin deputatı (1995-2020-ci illər), Əmək və Sosial Siyasət Komitəsinin sədri olub.

### Həftənin TƏYİNATI



Prezident İlham Əliyevin sərəncamı ilə Fərhad Əsgər oğlu Adıgözəlov Dövlət Reklam Agentliyi İdarə Heyətinin sədri təyin edilib. Fərhad Adıgözəlov 1977-ci ildə Bakı şəhərində anadan olub.

1999-cu ildə Azərbaycan Beynəlxalq Universitetində maliyyə və kredit üzrə bakalavr dərəcəsinə yiyələnib. F.Adıgözəlov əmək fəaliyyətinə 2000-ci ildə "Azərsığorta" Dövlət Sığorta Şirkətində başlayıb. F.Adıgözəlov Prezident İlham Əliyevin 07 dekabr 2021-ci il tarixli sərəncamı ilə hazırkı təyinata qədər Dövlət Sığorta Kommersiya Şirkətinə sədri idi.

### Həftənin ÖZGÜVƏNİ



ABŞ-nin sabiq prezidenti Donald Tramp açıqlayıb ki, III Dünya müharibəsinin qarşısını yalnız o ala bilər. "Mən sübut edəcəyəm ki, bunu edə bilən yeganə şəxs mənəm. Co Bayden administrasiyasındakı adamların III Dünya müharibəsinin qarşısını necə almaq barədə heç bir fikri yoxdur", - o bildirib.

### Həftənin TƏKLİFİ



Türkiyəli müğəni Hülya Avşar evlilik proseduru ilə bağlı verdiyi təkliflə ölkə əhalisinin sərt reaksiyası ilə üzləşib. Avşar evliliklərin kirayə müqaviləsi kimi 5 il müddətinə imzalanmasını təklif edib. "Beş ildən bir evlilik müqaviləsi yenilənməlidir. O zaman tərəflər daha məsuliyyətli olar. Beş ilin sonunu həyəcanla gözləyərlər ki, görəsən, yenidən mənimlə evlənmək istəyərmi?".

### Həftənin HƏDİYYƏSİ



Türkiyə millisinin sabiq yarımmüdafiəçisi və "Eyüpspor"un baş məşqçisi Arda Turan həyat yoldaşı Aslıhan Doğan Turana bahalı hədiyyə alıb. Futbolçu həyat yoldaşına 2,1 milyon avro dəyərində "Rolls-Royce" hədiyyə edib. Qeyd edək ki, Arda Turanla Aslıhan Doğan 5 ildir evlidirlər. Onların Hamza Arda və Asil Aslan adlı iki övladı var.

### Həftənin QOCASI



Dünya şöhrətli aktyor Ceki Çanın sosial şəbəkədə yayılan son fotosu böyük müzakirələrə səbəb olub. Ötən həftə 70 yaşı tamam olan aktyor sosial şəbəkə hesabında şəklini paylaşıb. Aktyor şəkildə saçı və saqqalı ağarmış, həddən artıq yaşlanmış görünüb. Onun birdən-birə bu qədər qocalması sevənlərini məyus edib. Ceki Çan izləyicilərini çox intizarda qoymayıb və yeni rolu üçün belə göründüyünü bildirib.

✍ *Azad Əliyev*

## "Bakcell" böyük yeniliklərə hazırlaşır ®



**Son bir neçə həftə ərzində ölkənin media gündəmindən çıxmayan Bakcell "yeni dövr başladırıq" şüarı ilə növbəti videonu paylaşıb.**

Yeni reklamda Azərbaycanın bir çox tanınmış simaları Bakcell brendinin böyük dəyişiklər astanasında olduğunu bildirir və bir çox yeniliklər gətirəcəyini vəd edir.

Şirkət heç bir rəsmi açıqlama verməsə belə, videolarda innovasiya, süni intelekt və yeni məhsullarla bağlı mesajları sezmək olur. Ən son reklamda isə tarix və məkan qeyd olunub; 25 aprel 18:00, Bakı Bulvarı.

## Opera səhnəmizin əfsanəsi

**Müasir Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsi Lütfiyar İmanov milli musiqimizin inkişafında müstəsna xidmətləri olan sənətkarlarımızdandır. Onun klassik opera sənəti və xalq musiqisinin vəhdətindən bəhrələnən yüksək ifaçılıq məharəti Azərbaycan vokal sənəti tarixində yeni bir mərhələ təşkil edir.**



L.İmanovun adı ölkəmizin, eləcə də xarici ölkələrin konsert salonlarını və opera səhnələrini fəth etmiş bir müğənni kimi məşhurdur. AZƏRTAC xəbər verir ki, bu gün Azərbaycan musiqi sənətinin istedadlı nümayəndələrindən biri, görkəmli opera müğənnisi, SSRİ Xalq artisti Lütfiyar İmanovun anadan olmasının 96 ili tamam olub.

İndi musiqini sevən, lakin L. İmanovu tanımayan adama çətin rast gəlmək olar. Vokal sənəti həvəskarları onunla ilk olaraq 1959-cu ildə Moskvada Böyük Teatrın səhnəsində (Azərbaycan incəsənəti ongünlüyündə) əfsanəvi qəhrəman Koroğlu obrazını yaradarkən tanış olublar.

F.Əmirovun "Sevil" operasında Balaş, C.Cahangirovun "Azad" operasında Ayaz, R.Mustafayevin eyniadlı operasında Vaqif, M.Maqomayevin "Nərgiz" operasında Əlyar, V.Adıgözəlovun "Ölülər" operasında İsgəndər, S.Ələsgərovun "Bahadır və Sona" operasında Bahadır müğənninin parlaq şəkildə yaratdığı opera obrazlarıdır.

L. İmanov dünya klassik operalarında məharətlə çıxış etmiş, J.Bizenin "Karmen" operasında Xoze, P.Çaykovskinin "Qaratoxmaq qadın" operasında German, C.Verdinin "Aida"sında Radames, "Otello" operasında Otello, Ofenbaxın "Hofmanın nağılları" operasında Hofman, Ş.Qunonun eyniadlı opearsında Faust, "Toska" operasında Kavaradossi obrazları o dövr mətbuatı tərəfindən yüksək qiymətləndirilib. Ömrünün yarım əsrə yaxın bir dövrünü opera ifaçılığına həsr edən Lütfiyar İmanov musiqi mədəniyyətimizdə daim öz dəst-xətti ilə seçilən bir mədəniyyət xadimi olmuşdur. Tanınmış sənətkarın yüksək səhnə mədəniyyəti, aktyorluq məhərəti və güclü səsi ona geniş repertuarla çıxış etməyə imkan verib. Onun Azərbaycan və dünya klassiklərinin şah əsərlərində ifa etdiyi partiyalar, yaratdığı obrazlar öz dolğunluğu, kamilliyi və təbiiliyi ilə seçiyyələnib. Sənət fəaliyyəti boyu təqdirəlayiq uğurlar əldə edən L. İmanov milli və dünya klassik opera nümunələri ilə yanaşı, müxtəlif konsert proqramlarında kamera-vokal əsərləri, romansları və xalq mahnılarını zövq və ustalıqla oxuyub. İfaçısı olduğu əsərlərin üslub xüsusiyyətlərini dərindən duyma və onları özünəməxsus tərzdə məharətlə çatdırma qabiliyyəti L. İmanova musiqisevərlərin rəğbət və məhəbbətini qazandırıb.

Xarici ölkələrə qastrol səfərləri 1960-cı ildən Hindistandan başlayıb. Hətta həmin ildə hind mahnılarını Azərbaycan dilinə çevirib və onları hər iki dildə ifa edib. O, Hindistan, Norveç, Bolqarıstan, Kuba, Çexiya, Polşa, Almaniya, Türkiyə, Yaponiya, Livan, Küveyt, Suriya, İordaniya, Fransa, İtaliya, Belçika, Hollandiya, İspaniya, Malta, Macarıstan, Yunanınsan, Rumıniya və b. ölkələrdə konsertlər verib. Çoxşaxəli fəaliyyəti bütövlükdə sənətə sonsuz bağlılıq nümunəsi olan Lütfiyar İmanov milli musiqi mədəniyyətinin inkişafı sahəsində mühüm nailiyyətlərinə görə müstəqil Azərbaycan Respublikasının ən ali mükafatı- "İstiqlal" ordeni ilə təltif edilib. Görkəmli opera müğənnisi 2008-ci il yanvarın 21-də vəfat edib.

## GÜNÜN FOTOSU



Olimpiya məşəli yandırıldı

## Qiymətlər ucuzlaşacaq?

**Pərviz Heydərov,**
iqtisadçı ekspert

İnflyasiya və digər iqtisadi göstəricilərlə bağlı uzunmüddətli proqnoz vermək qeyri-mümkündür.

Səh. 7

## STATİSTİKA



■ **2024-cü ilin yanvar-fevral aylarında Azərbaycana idxal olunan malların 63,5 faizini avtomobillər təşkil edib.**

2023-cü ilin yanvar-fevral ayları ilə müqayisədə 2024-cü ilin yanvar-fevral aylarında minik avtomobillərinin idxalı 7,1 faiz, avtobusların idxalı 17,2 faiz azalıb. 2024-cü ilin yanvar-fevral aylarında ölkəyə 12023 ədəd minik avtomobili, 1185 ədəd yük avtomobili, 24 ədəd avtobus idxal olunub.



Səh. 5

## Cənub sərhədlərimizdə müharibə təhlükəsi